Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

1
MAY
2020-ci il
№ 69 (4200)
Qiymməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur


# DALBADAL 4 BAŞÇI HƏBSİ - PREZİDENT DOĞRU DEDİ: «DAHA NƏ ETMƏLİ Kİ...»

səh. 3


Kremldən İrəvanı şoka salan yeni Qarabağ gedişləri - "...danışıqlar artıq Bakının istədiyi müstəvidədir" qənaəti ortalığı qarışdırdı
səh. 9

ABŞ-ın dini azadlıqlar hesabatına Azərbaycan düşməli idimi - Coni Mur düz deyir...
səh. 7

Kütləvi toplantıların bərpası Azərbaycanda pandemiyanın yeni tüğyanına səbəb ola bilər
səh. 4

Paşinyanın erməni diplomatlarla da müharibəsi başladı - diplomatlar üzə durublar...
səh. 6

Paşinyan Ermənistan dövlətini bitirdi - ölkədə kriminogen durum nəzarətdən çıxıb, narazılıq pik həddə...
səh. 11

Dolların mövqeyi ciddi şəkildə sarsılır, manat güclənə bilər...
səh. 12

65 yaşüstü qocalar arasında karantin qaydalarını pozmaq meylləri - qadağa qüvvədədir, təhlükə bitməyib...
səh. 14

Açılmış geyim mağazaları virus yayılma mənbəyi ola bilər - nə etməli...
səh. 15




## Azərbaycanda pandemiyanın «ikinci dalğa» təhlükəsi - çıxış yolu var, vətəndaşlar nə etməlidir...

səh. 4





**Kamran Əliyev - korrupsiya ilə mübarizədən daha geniş çeşiddə cinayətlərlə mübarizəyə...** səh. 5

**Ərəb şahzadəsinin Ermənistanda seks-turizmə investisiya planları...** səh. 13

**Karantin qaydalarının yumşalmasından sui-istifadələr başlayıb - yeni pandemiya təhlükəsi...** səh. 10

səh. 8
Arxı keçib "hop" deyək - Azərbaycanda pandemiyanın "ikinci dalğa" təhlükəsi... "Evdə qalmaq" hələ bitməyib...



səh. 6
Pandemiya əleyhinə Azərbaycanın uğurlarına qərəzli beynəlxalq reaksiya - Repressiyalar üçün bəhanə?



səh. 7
Rusiya müxalifəti virtual mitinqlər üsuluna keçir, bizimkilər küçə aksiyalarından niyə əl çəkmir...



səh. 14
Beynəlxalq agentlikdən Azərbaycan barədə mübahisəli proqnoz - problemli kreditlər 20 faiz arta bilərmi...



səh. 15
Rusiyada tibb təhsili alanların diplomunun Bakıda tanınması problemi...



## Prezident "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə 28 milyon manat ayırdı

**Prezident İlham Əliyev Aqrar sahənin texniki təminatının gücləndirilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda deyilir:

"Son dövrlərdə ölkə iqtisadiyyatının əsas prioritet sahələrindən olan aqrar sektora dövlət dəstəyinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 45 mindən çox müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası, o cümlədən müasir tipli pambıqyığan və taxılbiçən kombaynlar, traktorlar, yedəklər və digər kənd təsərrüfatı texnikası alınaraq respublikaya gətirilib. Ölkənin kənd təsərrüfatı texnikası parkı müasirləşdirilmiş, dövlət büdcəsinin vəsaiti hesabına ilkin dəyərinə 40 faiz güzəşt tətbiq edilməklə həmin maşın və mexanizmlər fermerlərə satılıb.

Sərəncama əsasən, taxılçılıq, pambıqçılıq və digər ənənəvi kənd təsərrüfatı sahələrinin davamlı inkişafı üçün kənd təsərrüfatı məhsulları istehsalçılarının texnikaya ehtiyacını ödəmək məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.13.1-ci yarımbəndində göstərilmiş 28,0 (iyirmi səkkiz) milyon manat "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə ayrılır.

Maliyyə Nazirliyi bu sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti isə bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir".

## Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edildi

**Prezident İlham Əliyev Mahir Quliyevin Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.**

"Trend"-in məlumatına görə, sərəncama əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutularaq Mahir Hacı oğlu Quliyev Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

## Azərbaycanda 38 yeni koronavirusa yoluxma qeydə alındı, 58 nəfər sağaldı, 1 nəfər vəfat etdi




**Azərbaycanda 38 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 58 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan bakixeber.com-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, arterial hipertenziya xəstəliyi olan 1951-ci il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 1804 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1325 nəfər müalicə olunaraq sağalıb, 24 nəfər vəfat edib, 455 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 17 nəfərin vəziyyəti ağır, 24 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 143.079 test aparılıb.

# Prezident İlham Əliyev səlahiyyət müddəti başa çatmış Zakir Qaralovla telefonla danışıb

**Prezident İlham Əliyev aprelin 30-da Zakir Qaralovla telefonla danışıb.**

Telefon danışığı zamanı dövlət başçısı Baş prokuror vəzifəsində səlahiyyət müddəti başa çatmış Zakir Qaralovun bu vəzifədə ümummilli lider Heydər Əliyevin dövlətçilik prinsiplərinə sədaqətlə xidmət etdiyini vurğulayıb, özünün prezidentlik fəaliyyəti dövründə də prokurorluq orqanlarının işinin təkmilləşdirilməsi istiqamətində onun gördüyü işləri qeyd edib.



Fəaliyyətinə verilən qiymətə görə dərindən minnətdarlıq edən Zakir Qaralov Azərbaycan Prezidentinin həyata keçirdiyi uğurlu siyasəti daim dəstəkləyəcəyini bildirib.

# Azərbaycanda koronavirusla mübarizəni Çin tələbələri də izləyir - Quancou şəhərindən Prezidentə məktub yazdılar...

**Dünyanı bürüyən koronavirus pandemiyası ilə mübarizə sahəsində ölkəmizdə görülən işlər əcnəbilər tərəfindən də yaxından izlənir və təqdir edilir.**

Çin Xalq Respublikası, Quancou şəhərindən Quancou Universitetinin tələbələri Yanjie Qiao, Ren Zhi, Yanping Zhong, Xin Vang, Huan Zhang, Meng Vang, Yilian Gao, Caiyan Vu, Vei Qi Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya ünvanladıqları məktubda bu barədə danışırlar. "Biz Çinin Quancou Universitetinin tələbələriyik. Bu gün Sizə məktub yazmaq imkanından şərəf hissi duyur və özümüzü xoşbəxt sayırıq.



Bu fürsətdən istifadə edərək Sizə və ailənizə hər şeyin ən yaxşısını arzulayırıq. Sizi uğurlu nailiyyətlərinizə görə təbrik edir və sülhsevər səyləriniz üçün Zati-alinizə təşəkkür edirik. Biz Sizi çox sevir və dəstəkləyirik. Hər zaman da dəstəkləyəcəyik. İnanırıq ki, böyük əməksevərliyiniz və müdrikliyiniz gələcəkdə xalqınıza daha xoşbəxt və daha parlaq həyat yaşadacaq".

Çinli tələbələr öz məktublarında, həmçinin, Prezident İlham Əliyevə və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyətini heyranlıqla izlədiklərini də qeyd edirlər.

"Həyata keçirdiyiniz böyük işləri görmək üçün gələcəkdə Bakıya gəlməyi də planlaşdırırıq. Sizi gələcəkdə doğma şəhərimizdə görmək səadəti bizə nəsib olsa, gülərüz qonaqpərvərliyimizlə yanaşı, Sizə olan böyük hörmətimizi də məmnuniyyətlə nümayiş etdirərik.

Dünyada koronavirusun yayıldığı bir vaxtda Sizə, ailənizə və xalqınıza təhlükəsiz, sağlam həyat diləyirik" - deyə Quancou Universitetinin tələbələri məktublarında bildirirlər.

# Finlandiyadan iki soydaşımız Prezidentə məktubda Azərbaycanda koronavirusla uğurlu mübarizəni belə izah etdi...

**Pandemiya ilə bağlı Azərbaycan dövlətinin həyata keçirdiyi uğurlu mübarizə tədbirləri, ölkəmizin əldə etdiyi nailiyyətlər xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarımızın da diqqətlə izlədiyi prosesə çevrilib.**

Finlandiya Respublikasının Espoo şəhərindən FAA həmsədrləri Vasif Muradlı və Arzu Oqtay da Prezident İlham Əliyevə məktub yazıblar. "Biz Finlandiyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları - Finlandiya Azərbaycan Assosiasiyası, Azərbaycan Qadınlar Cəmiyyəti, Finlandiya Azərbaycan Gənclər Birliyi Təşkilatı Sizin uzaqgörən və çevik qərarlarınız sayəsində ölkəmizdə COVID-19 pandemiyasının yayılmasının qarşısını almaq məqsədilə atdığınız addımları, xalqımızın sağlamlığının qorunması və rifahının daha da yaxşılaşdırılması üçün verdiyiniz mühüm qərarları, xaricdə yaşayan biz azərbaycanlıları diqqət mərkəzində saxlayaraq, hər cür yardımların göstərilməsinə göstəriş verməniz yüksək qiymətləndirərək minnətdarlığımızı bildiririk".

Soydaşlarımız qeyd edirlər ki, harada yaşamalarından asılı olmayaraq, Prezidentin ölkə vətəndaşlarına verdiyi yüksək dəyər onların dövlət başçısına olan inamını daha da möhkəmləndirir. "Avropa ölkələri ilə müqayisədə Azərbaycanda COVID-19 virusuna yoluxma və bu virusdan ölüm hallarının dəfələrlə az müşahidə olunması Sizin müdrik qərarlarınız, yürütdüyünüz siyasət və görülən qabaqlayıcı tədbirlər sayəsində oldu" - deyə bildirən məktub müəllifləri dünyada yaşayan bütün soydaşlarımızın Prezidentin "Biz birlikdə güclüyük!" çağırışı ətrafında sıx birləşdiklərini qeyd edirlər.

# Dalbadal 4 başçı həbsi - Prezident doğru dedi: "daha nə etməli ki..."

**Dünəndən başlayaraq sosial şəbəkələrdə və ölkənin aparıcı media qurumlarında daha bir icra başçısının müavinləri və rayonun digər vəzifəli şəxsləri ilə birlikdə həbs olunmasına dair məlumat yayılıb. Həmin xəbərlərin gün ərzində rəsmi qurumlar tərəfindən təkzib olunmaması, hər halda, məlumatın doğruluğuna dəlalət edir.**

Bununla o qənaətə gəlmək olar ki, rüşvətxor, qanunsuzluqlara yol verən icra başçılarının həbsi davam edir. Bildirilir ki, Dövlət Təhlükəsizlik Xidməti aprelin 29-da Biləsuvar Rayon İcra Hakimiyyətində əməliyyat keçirib. İcra başçısı Mahir Quliyevlə birgə müavinləri - birinci müavini Xanlar Bayram oğlu Məmmədov, müavini - sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Elsevər Cəmil oğlu Həsənov, müavini - ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ləman Cəbrayıl qızı Yüzbaşova da saxlanıb.

Qeyd edək ki, bu, son 5 ay ərzində həbs edilən sayca dördüncü icra başçısı olur. Bundan əvvəl Ağstafa, Neftçalanın icra başçıları vəzifə başındaca saxlanıblar. Onların etdikləri qanunsuz əməllər əməliyyat çəkilişi vasitəsilə nümayiş olundu. Həbs olunanlardan biri isə Yevlaxın sabiq icra başçı idi. Bundan 3 gün əvvəl isə İsmayıllı rayon icra hakimiyyəti başçısının İsmayıllı şəhəri üzrə icra nümayəndəsi Məhərrəm Əhmədovun qanunsuz hərəkətləri barədə daxil olmuş məlumatlar əsasında Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib. Yayılan rəsmi məlumatda Məhərrəm Əhmədovun həbsinə səbəb kimi onun kasıblara dövlət tərəfindən ayrılmış ərzaqları mənimsəməsinə dair əsaslı şübhələr olduğu qeyd olunub. İstintaq zamanı toplanmış ilkin sübutlar əsasında fakta görə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanıb, M.Əhmədov şübhəli şəxs qismində tutulub. Görünən budur ki, bəzi icra başçıları dövlətin gördüyü tədbirlərdən nəticə çıxarmaq əvəzinə, öz qanunsuz əməllərini davam etdirirlər. Təsadüfi deyil ki, ölkə başçısı da bir neçə dəfə çıxışlarında bu incə məqamlara toxunub. Prezident deyib:"Bəzi yaramaz icra başçıları həm özlərini, həm də bizim iqtidarımızı biabır ediblər. Onların alçaq hərəkətləri ümumi qınaq obyektinə çevrilib". Ölkə başçısı ötən ay Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevi qəbul edərkən demişdi ki, daha hansı addımlar atılmalıdır, neçəsi həbs olunmalıdır ki, onlar belə əməllərindən əl çəksinlər:"Hamı bilsin ki, məsələ bununla bitməyəcək. Birinci hadisə oldu, eşitmədilər, ikinci hadisə oldu, eşitmədilər. Neçəsi həbs olunmalıdır ki, bunlar öz çirkin əməllərindən əl çəksinlər? Bu proses davam etdiriləcək və hamı üçün də dərs olmalıdır. Ona görə bu biabırçı hallarla bağlı daha ciddi addımlar atılacaq". Hadisələrin gedişi göstərir ki, yarıtmaz, korrupsioner icra başçıları ilə bağlı doğrudan da ciddi addımların atılması davam edir. Bəzi icra başçılarının yaşananlardan nəticə çıxarmamasının səbəbi nə ilə bağlıdır?

## İlqar Hüseynli: *"Fərqli partiya üzvləri arasından seçilən insanlarla da bağlı belə təyinatları reallaşdırmaq olar"*




Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar Birliyinin prezidenti İlqar Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, dəfələrlə bizim qəzetlə bu mövzu ətrafında müzakirə aparılıb:"Yadınızdadırsa, biz sizinlə hələ icra başçılarının həbsindən əvvəl bu sahə ilə bağlı həyəcan təbili çalmışdıq. Sonra Ağstafanın icra başçısı və Yevlaxın sabiq icra başçısı həbs edildi. Ardınca Neftçalaya rəhbərlik edən şəxs həbs edildi. Dünən baş vermiş hadisə yenidən bu mövzunu gündəmə gətirmiş oldu. Sosial şəbəkələrdəki reaksiyalara fikir verin. Demək olar bütün rayonlardan çağırış edilir ki, DTX onların da rayonuna təşrif buyursun. Bir sözlə, belə mənzərə yaranır ki, uzun illər kresloda oturan icra başçılarının əksəriyyəti eyni metodla işləyib, bənzər problemlər yaradıblar. Uzun müddət icra başçısı işləyən çoxunu araşdırsan, külli miqdarda var-dövləti, qeyri-leqal biznesi üzə çıxacaq. Eyni zamanda, dövlət büdcəsindən, Prezidentin Ehtiyat Fondundan ayrılan vəsaitlərin amansızcasına talandığının şahidi olacağıq. Monitorinq etsək görəcəyik ki, bir çox adı hallanmayan rayonda da işsizliyə görə verilən sosial kartların böyük əksəriyyəti icra başçılarının qohumlarının cibindədir. Bütün bu neqativlikləri ayrı-ayrı icra başçıları ilə bağlı görülən sərt tədbirlərlə aradan qaldırmaq mümkün olmayacaq. Mən təklif edərdim ki, zamanında parlamenti buraxdıqları kimi, cənab Prezident icra başçılarının bütün korpusunu buraxıb, həmin vəzifələrə korrupsiyadan tam uzaq olan şəxsləri təyin etsin.

Onda biz fərqi görəcəyik. Prezident dəfələrlə çıxışında yeni siyasi konfiqurasiyanın yaradılmasının vacibliyini deyib. Bunu icra qurumlarına təyinatlarda da reallaşdırmaq olar. Qanunvericilik YAP üzvü olmayan şəxsin də icra başçısı təyin edilməsini qadağan etmir. Bu baxımdan da belə bir təcrübəni də sınamaq lazımdır. Çox qeyrətli və mərd, karyerası təmiz, savadlı övladlarımız var. Fərqli partiya üzvləri arasından seçilən insanlarla da bağlı belə təyinatları reallaşdırmaq olar. Onda ciddi rəqabət yaranar və işin keyfiyyət əmsalı artar. Bu təcrübəni sınamaq indiki məqamda yaxşı olar. Əminəm ki, müsbət effektini görərik".

*Məhəmmədəli QƏRİBLİ*

# Azərbaycanda pandemiyanın "ikinci dalğa" təhlükəsi - çıxış yolu var, vətəndaşlar nə etməlidir...

**Azərbaycanın baş infeksionisti Cəlal İsayev bildirib ki, hazırda Azərbaycanda xəstəxanalarda 500-dək insan koronavirusa görə müalicə edilir. Onun sözlərinə görə, karantin rejimi bitdikdən sonra da insanlar müəyyən tələblərə əməl etməli, tövsiyələri nəzərə almalıdır:"Gün ərzində təxminən 30-40 nəfər sağalaraq evə buraxılır.**

Amma hələ də ölkədə hər gün yoluxma halı qeydə alınır. Biz yalnız yeni yoluxma qeydə alınmadıqda, xəstəxanalarda müalicə edilən insanların sayı azaldıqda virusun ölkəmizdə yox ola bilməsi haqqında danışa bilərik. Amma ölkədə hətta 1-2 nəfərdə belə koronavirusa yoluxma halı varsa, sadaladığım şəxslər risq qrupuna daxil olan insanlar sayılacaqlar". C.İsayev bunu nəzərə alaraq, insanlara xəbərdarlıq edib ki, mayın 4-də karantin rejimindən çıxılsa belə, insanlar müəyyən tələblərə əməl etməli, tövsiyələri nəzərə almalıdır:"Bu tövsiyələrin bir qismi, məsələn, əllərin yuyulması, şəxsi gigiyena qaydalarına əməl edilmə, kütləvi yerlərdən uzaq olmaq bizim gündəlik həyatımızla bağlıdır. İnsanların çox olduğu yerlərdə yalnız koronavirusa deyil, hər cür infeksiyaya yoluxmaq mümkündür. Ona görə də həmişə qaydalara riayət etməliyik ki, təkcə koronavirusa deyil, digər infeksiyalara da yoluxmayaq". Bu səbəbdən də bir sıra ekspertlər tövsiyə edirlər ki, karantinin bitəcəyi ilə bağlı veriləcək qərar vətəndaşları arxayın etməməlidir. Tibbi təcrübəyə əsaslanaraq söylənilir ki, istənilən ehtiyatsızlıq bizi virusun yayılmasının "ikinci dalğası" ilə üz-üzə qoya bilər.

Həkim, tibb üzrə fəlsəfə doktoru Leyla İbrahimli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Nazirlər Kabinetinin qərarına əsasən, aprelin 27-dən etibarən xüsusi karantin rejiminin məhdudiyyətlərinin bir qismi yumşaldılıb:"Nəticədə bir çox sahələrdə çalışan insanlar öz fəaliyyətlərini bərpa ediblər. Belə olan halda virusun yayılma ehtimalı da artır. Artıq həyat əvvəlki axarına qayıdır. Amma bu bizi tam arxayınlaşdırmamalıdır. Koronavirusun hər an başımızın üstünü ala biləcəyini göz önünə gətirməliyik. Karantin rejimindəki məhdudiyyətlərin bəzisi aradan qaldırıldığı üçün əhali arasında virusa yoluxmada artım ola və prosesin ikinci dalğası başlaya bilər. Mayın 4-də isə karatinin uzadılmasının zamanı bitir. Bununla bağlı hansı qərarın veriləcəyini deyə bilmərik. Ancaq istənilən yumşalma yenə olsa belə, biz ehtiyatımızı əldən verməməliyik. Karantin rejiminin yumşaldılması o demək deyil ki, problem tam aradan qalxıb. Gigyenik, sosial məsafə və s. istiqamətində olan qaydalara mümkün olduğu qədər çox əməl etməliyik. Çünki yalnız bunlara əməl etməməklə pandemiya təhlükəsini artırmış olarıq. Yumşaldılma qərarı verən bəzi ölkələrin təcrübəsi göstərdi ki, yoluxma birdən-birə artım göstərib. Vəziyyət az qala yumşaldılmadan əvvəlki dönəmdə olduğundan daha təhlükəli olub. Ona görə də bu acı təcrübələrdən nəticə çıxararaq diqqətli olmaq, virusun yayılmasına səbəb ola biləcək addımlardan çəkinmək lazımdır. Beləliklə biz yoluxmanı önləyər, karantin rejiminin bütövlükdə aradan qalxmasına, ölkəmizin, cəmiyyətimizin həyatının əvvəlki axara qayıtmasına səbəb ola bilərik. Əgər özümüzü qorumasaq və maarifləndirici tədbirlərə ara versək, yenidən təhlükə ilə üz-üzə qala bilərik".

***Leyla İbrahimli:** ”Karantin rejiminin yumşaldılması o demək deyil ki, problem tam aradan qalxıb”*



***Məhəmmədəli QƏRİBLİ***

# Kütləvi toplantıların bərpası Azərbaycanda pandemiyanın yeni tüğyanına səbəb ola bilər

**Məlum olduğu kimi, koronavirus xəstəliyinə yoluxma hallarının artması və virusun çoğrafiyasının genişlənməsi səbəbindən mart ayında bir sıra ölkələrdə, o cümlədən, Azərbaycanda kütləvi tədbirlərin keçirilməsinə məhdudiyyət qoyuldu.**



***Məhərrəm Zülfüqarlı:** ”Kütləvi tədbirlərin keçirilməsinə icazə verilsə, o zaman virusa yoluxanların sayı kəskin arta bilər”*

Virusun dünya üzrə əhatə dairəsi genişləndiyindən, ölkəmizdə də müvafiq profilaktik tədbirlər gücləndirildi. Bununla əlaqədar Bakı şəhərində və respublikanın müxtəlif regionlarında kütləvi tədbirlərin keçirilməsi qadağan edildi. Həmçinin, adamların sıx toplaşdığı məkanlarda virusa yoluxma risqi yüksək olduğundan, toy və bu cür məclislərin keçirilməsi təxirə salındı. Yas mərasimlərinin kütləvi keçirilməməsi tövsiyə edildi.

Müşahidələr göstərdi ki, sözügedən kütləvi tədbirlərin məhdudlaşdırılması öz müsbət effektini verdi. Bütün bunların sayəsində virusun ölkədə geniş yayılmasının qarşısı alındı. Qeyd olunan addımlar atılmasaydı, o zaman pandemiyanın ölkədə yayılması daha geniş səviyyədə olacaqdı. Virusa yoluxanların sayı indiki rəqəmlərlə müqayisədə dəfələrlə çox olacaqdı. Son vaxtlar hökumət bəzi yumşalmalara gedir. Bəzi xidmət sahələrində işlərin yenidən başlanmasına icazə verilib. Ancaq hazırkı dövrdə kütləvi tədbirlərin keçirilməsinə qoyulan məhdudiyyətin götürülməsi məqsədəuyğun deyil. Çünki kütləvi toplantıların bərpası ölkədə pandemiyanın yenidən tüğyan etməsinə səbəb ola bilər. Ona görə də sözügedən toplantıların bərpa olunması o qədər də məqsədəuyğun deyil. İstənilən halda, pandemiya dövründə kütləvi tədbirlərin bərpası ciddi risqlərə səbəb ola bilər. O üzdən, məhdudiyyətlərin hələ bir müddət qalması daha məsləhətdir.

*”...yaxın perspektivdə buna gedilməsi məsləhət deyil”*

Maraqlıdır, bəs ekspertlər buna necə yanaşırlar?

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının fikrincə, kütləvi tədbirlərin keçirilməsinə icazə verilsə, o zaman virusa yoluxanların sayı kəskin arta bilər: "Ona görə də yaxın perspektivdə buna gedilməsi məsləhət deyil. Bu, müəyyən təhlükələrə səbəb ola bilər. Təsadüfi deyil ki, neçə vaxtdır ölkədə böyük kütləvi tədbirlər təxirə salınıb. Çünki bunu zəruri edən səbəblər var. Hesab edirəm ki, şərait yaranarsa, bununla bağlı yumşalmaya getmək olar. Bu da tədricən olmalıdır. Yəni insanlar bir sıra qaydalara tam əməl etdikdən və virusa yoluxanların sayı kəskin azaldıqdan sonra buna getmək olar. Mayın 4-dən sonra yumşalmalar başlasa, mərhələ-mərhələ, zamanı gəldikcə bəzi addımları atmaq olar. Digər tərəfdən, hər bir vətəndaş fərdi şəkildə özünü qorumalıdır. Sonra qohum-əqrəbasını, ətrafda olan insanları gözləməlidir. Tutaq ki, ali məktəblərdə dərslər bərpa olunur, o zaman kafedraya gedən müəllimlər özünü gözləməlidir. Tələbələr bir-birindən məsafə gözləməlidir ki, xəstələnənlərin sayı artmasın. Pandemiya ilə bağlı əsas məsələ odur ki, virus geniş yayılmasın. Ancaq kütləvi tədbirlərin bərpası yolverilməzdir. Düzdür, hələlik bu məsələ gündəmdə deyil. Ancaq, buna baxmayaraq, bəzi yumşalmalar fonunda buna getmək olmaz. Sözügedən məsələyə son dərəcə diqqətlə yanaşmaq lazımdır".

***Vidadi ORDAHALLI***

# Kamran Əliyev - korrupsiya ilə mübarizədən daha geniş çeşiddə cinayətlərlə mübarizəyə...

## *Mehman Muradlı: "Hər bir dəyişiklik yeni yanaşma, yeni nəfəs deməkdir"*

**Prezident İlham Əliyevin təqdimatına əsasən Baş prokuror vəzifəsinə Baş prokurorun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin rəisi Kamran Əliyevin namizədliyi irəli sürülüb.**

K.Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin olunmasına razılıq verilməsi haqqında məsələ yaxın vaxtlarda parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsində müzakirəyə çıxarılacaq. Qeyd edək ki, hazırda Azərbaycanın Baş prokuroru Zakir Qaralovdur. O, 25 aprel 2000-ci il tarixdən bu vəzifəni tutur. Əksər ekspertlərin qənaəti budur ki, Prezident tərəfindən təqdimatı verilən Kamran Əliyevin Baş prokuror seçilmək şansı çoxdur. O hazırda Baş prokurorun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə idarəsinin rəisi vəzifəsində çalışır. Mövzunun aktuallığını nəzərə alıb, Kamran Əliyevin tərcümeyi-halını təqdim edirik:

K.Əliyev 1965-ci ilin noyabr ayının 18-də Balakən rayonunda anadan olub. 1987-ci ildə Rusiya Federasiyasının İrkutsk Dövlət Universitetinin Hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra təyinatla prokurorluq orqanlarına işə qəbul olunaraq Rusiya Federasiyasının Zabaykalye Nəqliyyat Prokurorluğunun Çita Nəqliyyat prokurorluğunun müstəntiqi vəzifəsi üzrə stajoru təyin edilib. Daha sonra K.Əliyev həmin prokurorluqda və Zabaykalye Nəqliyyat Prokurorluğunda böyük müstəntiq vəzifəsində işləyib. 1990-1993-cü illərdə keçmiş SSRİ Baş Prokurorluğunun Elmi-Tədqiqat İnstitutunda əyani şöbə üzrə aspirantura təhsili alıb, paralel olaraq həmin müəssisədə elmi işçi vəzifəsində işləyib. 1993-cü ildə həmin İnstitutda dissertasiya işini müdafiə edərək hüquq elmləri namizədi elmi dərəcəsini alıb. Daha sonra K.Əliyev köçürülmə qaydasında Azərbaycan Respublikası Prokurorluğu orqanlarına işə qəbul olunmaqla Kadrlar idarəsinin prokuroru, Elm-Tədris Mərkəzinin rəisi, Baş Prokurorluğun İstintaq və ağır cinayətlərə dair işlər üzrə istintaq idarələrində müstəntiq və böyük müstəntiq, Baş prokurorun köməkçisi və böyük köməkçisi, Baş Prokurorluğun Dövlət İttihamının müdafiəsi idarəsinin rəisi vəzifələrində işləyib. 06.08.2007-ci il tarixdən isə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi vəzifəsinə təyin edilib. Azərbaycan Respublikası Prezidentinin 05.08.2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi təyin edilib. II dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsindədir. Hüquq elmləri üzrə fəlsəfə doktorudur. İngilis və rus dillərini sərbəst bilir. K.Əliyev Azərbaycan Respublikasının Baş Prokurorluğu Kollegiyasının üzvüdür. O, həmçinin, Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin, Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupunda (GRECO) Azərbaycan nümayəndə heyətinin üzvüdür, habelə ölkəmizin Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı üzrə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatında (OECD) Milli koordinatorudur. Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə "Azərbaycan bayrağı" ordeni ilə təltif edilib. Ailəlidir, iki övladı var.



Prokurorluq sistemində baş verməsi gözlənilən bu dəyişikliyi necə dəyərləndirmək olar? Azərbaycan Vəkillər Kollegiyasının üzvü, hüquqşunas Mehman Muradlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Zakir Qaralovun əvəzlənməsi onun müddətinin bitməsi ilə bağlıdır:"Qanunvericiliyə görə, hər dəfə müəyyən edilən müddət başa çatanda ölkə başçısı Milli Məclisə Baş prokurorluğa namizəd təqdim edir. Qanunverici orqan da həmin təqdimatı nəzərdən keçirib səsverməyə çıxarır. Zakir Qaralov Azərbaycanın tarixində ən uzun müddət bu məsuliyyətli vəzifəni icra etmiş şəxsdir. Ölkəmizin 29 illik müstəqillik tarixinin 20 ilini o, Baş prokuror olub. Bu az müddət deyil. Zakir Qaralov fəaliyyəti ərzində daim çalışıb ki, məsələlərə obyektiv yanaşsın. Bir hüquqşünas kimi Zakir müəllimi həm bizim, həm də vətəndaşların əlinin asan çata biləcəyi Baş prokuror kimi xarakterizə edərdim. Vətəndaşlarla yerlərdə daim qəbullar keçirirdi. Kifayət qədər rezonans doğuran cinayət hadisələrini şəxsən nəzarətinə götürürdü. Əksər hallarda həmin istintaqların gedişindən narazı olan vətəndaşları şəxsən qəbul edirdi. Onun yerinə namizədliyi irəli sürülən Kamran Əliyev də kifayət qədər peşəkar hüquqşunasdır. Hazırda Baş prokurorun müavini və Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisidir. Bu qurum yaradılan gündən Kamran müəllim ora rəhbərlik edir. Son illərdə biz bu Baş İdarənin fəliyyətindəki aktivliyi müşahidə edirik. Korrupsiya cinayətlərinin üstünün açılmasında olan dinamik irəliləyiş də Kamran müəllimin işə doğru yanaşmasının hesabına baş verir. Kamran müəllim həm də bir sıra beynəlxalq qurumların üzvüdür. Ölkədən kənarda kifayət qədər ciddi əlaqələrə malikdir. Biz görürük ki, son dönəmdə ölkədə korrupsiya ilə mübarizə sahəsində ciddi addımlar atılır. Siyasi iradə bundan ibarətdir ki, ölkədə bu bəlanın kökü tamamilə kəsilsin. Hesab edirəm ki, bir Baş prokuror kimi Kamran Əliyevin bu sahədə töhfələri çox olacaq. Çünki deyilən sahə ona çox yaxından tanışdı. Bundan əlavə, Kamran Əliyev prokurorluğun daxilindən bu vəzifəyə təyinat alırsa, onun yeni işə adaptasiya olması çətinlik yaratmayacaq. Əminəm ki, üzərinə düşən vəzifəni layiqincə yerinə yetirəcək və biz bu sahədə daha da inkişafın şahidi olacağıq. Hər bir dəyişiklik yeni yanaşma, yeni nəfəs deməkdir. Zakir müəllimə gələcək həyatında, Kamran Əliyevə isə yeni işində uğurlar arzulayıram".

***Məhəmmədəli QƏRİBLİ***

# Pandemiya əleyhinə Azərbaycanın uğurlarına qərəzli beynəlxalq reaksiya - Repressiyalar üçün bəhanə?

**"Amnesty İnternational" təşkilatının dərc etdiyi məruzədə bildirilir ki, Şərqi Avropa və Mərkəzi Asiya ölkələrinin hökumətləri koronavirus pandemiyasına insan hüquqları sahəsində öhdəliklərinə zidd olan zorakılıqla reaksiya verirlər.**



## *Yadigar Məmmədli: "Bəzi təşkilatlar məqsədyönlü şəkildə Azərbaycan dövlətinin koronavirusla mübarizədə gördüyü işlərə, əldə etdiyi uğurlara kölgə salmağa çalışırlar"*

İddia olunur ki, region hökumətləri pandemiyaya insan hüquqlarının pozulması üçün kart-blanş kimi baxırlar. Daha sonra qeyd edilir ki, guya Azərbaycan hökuməti hakimiyyətin pandemiyaya qarşı mübarizə tədbirlərinin görülməsində yol verdiyi səhvləri göstərən sosial şəbəkə istifadəçilərini, jurnalistləri və tibb işçilərini məsuliyyətə cəlb edib. Guya Azərbaycanda hakimiyyət COVID-19 pandemiyasından müxalifəti məhv etmək üçün bəhanə kimi istifadə edib.

Bundan başqa, Amerika Dini Etiqad Azadlığı Komissiyası (USCIRF) dini etiqad azadlığının "sistemli" və "misli görünməmiş" şəkildə pozulması hallarının olduğu ölkə kimi Azərbaycanın adını Dövlət Departamentinin Xüsusi Nəzarət Siyahısına salmağı tövsiyə edib.

USCIRF-in məlumatına görə, 2019-cu ildə Azərbaycanda dini etiqad azadlığında müsbət dəyişikliklər olub. Belə ki, hakimiyyət dini icmalara qarşı reydləri dayandırıb və icazəsiz dini etiqada görə saxlanma, cərimə təcrübəsini azaldıb, həmçinin, 51 siyasi və dini məhbusu əfv edib. Amma, eyni zamanda, guya bütün dini icmalara və onların fəaliyyətinə əsassız nəzarət davam edib.

Görünən odur ki, sözügedən təşkilatların Azərbaycanla bağlı belə qərəzli münasibət sərgiləmələri təsadüfi deyil. Məsələ ondadır ki, Azərbaycan koronavirusla uğurla mübarizə aparır. Sözügedən təşkilatların belə qərəzli münasibətini Azərbaycanın virusla mübarizədə qazandığı nailiyyətlərdən qıcıqlanmaları kimi qələmə vermək olarmı? Yaxud da belə hesab etmək olarmı ki, onlar ölkənin qazandığı nailiyyətləri gözü götürmədikləri üçün belə addımlar atırlar?

Məsələyə münasibət bildirən Demokratik Jurnalistlər Liqasının sədri, media eksperti Yadigar Məmmədlinin fikrincə, insan hüquqlarından danışan bəzi təşkilatların ard-arda qərəzli mövqe sərgiləmələri Azərbaycanın koronavirusla mübarizədə əldə etdiyi uğurlarla bağlıdır: "Məlum olduğu kimi, bu ilin əvvəlindən bütün dünya koronavirus bəlasına düçar olub. Bütün ölkələrin hansı səviyyədə koronavirusla mübarizə aparmasını Ümumdünya Səhiyyə Təşkilatı dəyərləndirir. ÜST-nin pandemiya ilə bağlı tövsiyələri var. Sözügedən təşkilat bu məsələni daim araşdırıb diqqətdə saxlayır və zaman-zaman açıqlamalar verir. Məhz ÜST-nin hesabatlarında bir sıra dövlətlərin virusla uğurlu mübarizə aparmaları açıqlanıb. Həmin dövlətlərdən biri də məhz Azərbaycandır. Azərbaycan dövləti koronavirusla mübarizədə həm təhlükəsizlik məsələlərində, həm də vətəndaşların qorunmasında çox uğurlu nəticələrə nail olub. Bir sıra dövlətlər əhalini lazımi tibbi preparatlarla təmin edə bilmirlər. Azərbaycan dövləti isə bu sahədə çox ciddi işlər görür. Ölkədə maska istehsalı təşkil olunub, süni nəfəs aparatları gətirildi. Xüsusi xəstəxana virusa yoluxanlara xidmət edir. Bütün bunlar operativ görülən işlərdir və bunları ÜST çox yüksək dəyərləndirir. Ancaq insan haqlarından danışan "Amnesty İnternational" və digər bu kimi təşkilatlar bunu düzgün qiymətləndirmək əvəzinə, buna siyasi don geyindirirlər. Məqsədyönlü şəkildə Azərbaycan dövlətinin koronavirusla mübarizədə gördüyü işlərə, əldə etdiyi uğurlara kölgə salmağa çalışırlar. Ona görə də onlar öz hesabatlarında ÜST kimi çox ciddi qurumun fikirlərini kənara qoyub, yenə öz bildiklərini söyləyirlər. Bu, açıq-aşkar qərəzli yanaşmadır".

> *"Bu, açıq-aşkar qərəzli yanaşmadır"*

**Vidadi ORDAHALLI**

# Paşinyanın erməni diplomatlarla da müharibəsi başladı - diplomatlar üzə durublar...

**Ermənistanın Baş naziri Nikol Paşinyanın diplomatlarla olan gərgin münasibətləri çərçivədən çıxaraq qalmaqallara çevrilir. Paşinyan deyib ki, Vatikandakı keçmiş səfir Mikael Minasyanın ölkənin müxtəlif şirkətlərinin satışında müəyyən payı var. Diplomatın buna cavabı çox gecikməyib. O, özünün "Facebook" səhifəsində Paşinyanın ittihamlarına münasibət bildirib.**



## *Məhəmməd Əsədullazadə: "Paşinyan qorxur ki, Minasyan ona qarşı siyasi cəbhə..."*

Minasyan qeyd edib ki, Paşinyandan fərqli olaraq, birbaşa vasitəçilərsiz yazır: "O isə "Aykakan Jamanak" qəzetindəki imzasız məqalələri ilə yanaşı, mətbuat katibindən oğurladığı "Facebook" profilində baş verənlərə "operativ reaksiya" göstərməyə cəhd edir.

Bunları diqqətinə çatdırıram. Siz, Nikol Vovayeviç Payinyan, şəxsən cavab verəcəksiniz: 1.Dağlıq Qarabağ məsələsi ilə bağlı işğal edilən Azərbaycan torpaqlarının geri qaytarılması üçün gizli danışıqlar apardığınıza və mərhələli həllə razılıq verdiyinizə görə. Əvəzində hakimiyyəti əldə saxlamaq istəyirsiniz. 2.Oliqarxlardan pul götürdüyünüzə və bunun müqabilində onları "qanunlara tabe olan sahibkarlar"a çevirdiyinizə görə. 3. Dövlət büdcəsindən on milyonlarla dolları açıq şəkildə oğurlayıb pul və bonus şəklində sizinlə addımlayanlara verdiyinizə görə. 4.Cinayətkarlığa göz yumduğunuza, idarəçilikdə etdiyiniz səhlənkarlığa, dövlət əmlakının mənimsənilməsinə və oğurlanmasına, koronavirusun yayılmasını və ölüm faktlarını gizlətdiyinizə görə. 5. Karantin zamanı ümumi fəaliyyətsizliyə və sosial məsuliyyətsizliyin təzahürünə görə. Nəticədə o insanları aclığa, qaranlığa və yoxsulluğa məhkum etdiniz. Hökumətin bağ evlərindən zövq aldığınıza və ehtiyac olmadan böyük məbləğə təmir etdiyinizə, bahalı və mənasız gəzintilərə və başqa hər şeyə görə. Xalqın özü sizi mühakimə edəcək".

Görünən odur ki, Paşinyanın uğursuz siyasəti üzündən diplomatlar onun üzünə dururlar. Get-gedə onun diplomatlarla olan ziddiyyətləri daha da dərinləşir.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Paşinyan hər vasitə ilə əks düşərgəyə yaxın olan şəxsləri zərərsizləşdirməyə çalışır: "Paşinyanın eks-prezident Serj Sarkisyanın kürəkəni və Vatikanda keçmiş səfir Mikael Minasyana qarşı korrupsiya, mənimsəmə iddiaları irəli sürməsi əsasən bu qrupun zərərsizləşdirilməsinə hesablanıb. Qeyd edim ki. Sarkisyanın kürəkəni ciddi varidata və diplomatlar arsında müəyyən nüfuza malikdir. Paşinyan qorxur ki, Minasyan ona qarşı siyasi cəbhə formalaşdırıb bu istiqamətdə onun mövqelərini zəiflədər. Ona görə də Paşinyan çalışır ki, Minasyanın da həbsinə nail olaraq, daha da mövqelərini gücləndirsin. Hesab edirəm ki, diplomatların çoxunun Paşinyana qarşı qadırılmasında əsasən Minasyan mühüm rol oynayır.

O üzdən, tərəflər arasında savaşın şiddətlənəcəyi gözlənir. Bu prosesdə Paşinyanın mövqeyi zəifləsə də, Minasyanın Paşinyan üzərində qələbə çalması mümkün deyil. Hesab edirəm ki, Ermənistanda kritik böhran bundan sonra başlayacaq və Paşinyan üçün çətin günlər gözlənir. Göründüyü kimi, Paşinyanın islahatlar inqilabı suya düşmüş olur".

> *"Hesab edirəm ki, Ermənistanda kritik böhran bundan sonra başlayacaq"*

**Vidadi ORDAHALLI**

**ABŞ-ın Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiyası (USCİRF) növbəti illik hesabatını yayıb. Komissiyanın hesabatında Azərbaycanla bağlı məlumat dərc olunub.**

# ABŞ-ın dini azadlıqlar hesabatına Azərbaycan düşməli idimi - Coni Mur düz deyir...

## Cəmşid Əliyev: "Azərbaycanın bu kimi hesabatlara daxil edilməsi düzgün deyil"



Qeyd edək ki, siyahıya Azərbaycanla yanaşı, Türkiyə, Qazaxıstan, Özbəkistan, İndoneziya, Malayziya, Cənubi Afrika Respublikası və bir sıra ölkələrin adları əlavə edilib. Bildirək ki, həmin komissiya öz fəaliyyətində bir sıra ölkələrə qarşı qərəzli yanaşma ilə seçilir.

Hesabatda dini azadlıqların qorunması sahəsində Azərbaycanın qonşu ölkələrdən daha çox nailiyyətlər əldə etdiyi qeyd olunub. Bununla yanaşı, ötən illərdə olduğu kimi, bu il də hesabatın Azərbaycana dair hissəsində bəzi qeyri-obyektiv və həqiqəti əks etdirməyən məqamlar öz əksini tapıb.

Onu da qeyd edək ki, ötən il də olduğu kimi, komissiyanın 9 üzvündən biri - Coni Mur (Johnnie Moore) bu qərəzli yanaşma ilə razılaşmayaraq, öz xüsusi rəyini açıqlayıb və bu mövqe hesabata daxil edilib.

Coni Mur Azərbaycanın bu hesabata daxil edilməsini düzgün hesab etməyib. O, Azərbaycanda sünni və şiə məzhəbinə aid nümayəndələrin birlikdə ibadət etdiklərini, Evangelist və Rus Ortadoks nümayəndələrinin birgə mərasimlərini və yəhudi icmasının tam azad və təhlükəsiz şəraitdə yaşadığını qeyd edib. Həmçinin, C.Mur Azərbaycan əhalisinin əksəriyyətinin müsəlman olmasına baxmayaraq, hindu liderlərinin Azərbaycanda qonaq edildiklərini, İranla həmsərhəd olan Azərbaycanın əhalisinin əksəriyyətinin şiə olmasına baxmaraq, İsraillə ictimai və diplomatik əlaqələrin mövcudluğunu xüsusi qeyd edib.

C.Murun dediyi kimi, Azərbaycanın bu kimi hesabatlara daxil edilməsi düzgün deyil. Çünki ölkəmizdə dini azadlıq problemi yoxdur.

*"Azərbaycanda olan milli və dini tolerantlıq dünyanın bir çox ölkəsində olmayacaq qədər güclüdür"*

İlahiyyatçı Cəmşid Əliyev bildirdi ki, Azərbaycanda olan milli və dini tolerantlıq dünyanın bir çox ölkəsində olmayacaq qədər güclüdür: "Ölkəmizdə dini azadlıq sarıdan problem olmadığı üçün, Azərbaycanın bu cür hesabata daxil edilməsi düzgün deyil. Çünki ölkəmizdə bütün dinlərə isti münasibət bəslənir. Sevindirici haldır ki, dövlətimiz bu sahədə örnək göstərilir. Dövlətimizin vətəndaşı ilə münasibəti dini və ideoloji deyil, ədalət çərçivəsindədir. Həmçinin, dövlətimiz cəmiyyətin mənəvi dəyəri olan dinə hörmətlə yanaşır. Dövlət içində din və vicdan azadlığı hakimdir və hər bir şəxs istədiyi dinə etiqad edə bilər".

**Həmsöhbətimiz onu da əlavə etdi ki, Azərbaycanda yaşayanlar arasında müsəlman olmayanlar da var. Onların öz dinlərinə sərbəst itaət etmələri üçün şərait yaradılır.**

*Günel CƏLİLOVA*

**Koronavirus pandemiyası virtual görüşlərin və təmasların mümkünlüyünü də gündəmə gətirmiş oldu. Biz şahidi olduq ki, belə vasitələrlə ali və orta məktəblərdə dərslərin keçirilməsi, ən müxtəlif formatlı görüşlərin videokonfrans formatında təşkili mümkündür. Artıq Rusiyadakı müxalif qüvvələr virtual mitinqlərin keçirilməsi ideyasını ortaya atıblar.**

# Rusiya müxalifəti virtual mitinqlər üsuluna keçir, bizimkilər küçə aksiyalarından niyə əl çəkmir...

## Bünyamin Qəmbərli: "Çünki virtual vasitələrlə polislə qarşıdurma yaradıb diqqəti özünə cəlb etmək qeyri-mümkündür ki, bu da həmin dairələrə sərf etmir"



Hətta ilk belə cəhd də olub. Rusiya müxalifəti "youtube" platformasında "Həyat uğrunda" şüarı ilə onlayn mitinq təşkil edib. Mitinq "Yox!" kampaniyasının təşkilatçıları tərəfindən gerçəkləşdirilib. Onlayn tədbirin iştirakçıları hakimiyyəti, böhran günlərində konstitusiyaya dəyişiliklər aparmaq yerinə, insanların həyatını xilas etməyə çağırıblar. Tələblər arasında bölgələrdə çalışan həkimlərin bütün zəruri vasitələrlə təmin olunması, koronavirusdan zərər çəkən vətəndaşlara birbaşa müavinətlərin ödənilməsi və kiçik biznesə yardım göstərilməsi, habelə epidemiya ilə mücadilə zamanı rusiyalıların hüquqlarının qorunması və konstitusiya islahatlarından imtina edilməsi yer alıb. "Youtube"dakı aksiya 20 minə yaxın insan tərəfindən dəstəklənib və 3 saat davam edib. Mitinqin aparıcıları "Novaya qazeta" nəşrinin əməkdaşları İlya Azar və aktrisa Yulia Auq olub. Burada siyasətçilərdən Dmitri Qudkov, jurnalist Maksim Şevçenko, "Dissernet" saytının təsisçisi Andrey Zayakin, iqtisadçı Sergey Quriyev, siyasi icmalçı Stanislav Belkovski və başqaları çıxış edib. Prinsipcə, belə mitinqlərin istənilən ölkədə təşkili mümkündür. Ancaq nədənsə, Azərbaycanda tez-tez mtinqlər, küçə aksiyaları keçirməyə çalışan radikal müxalif dairələr bu yenilikdən istifadə etməkdə maraqlı görünmürlər. Əgər məqsəd mitinq vasitəsilə tələbləri hakimiyyətin nəzərinə çatdırmaqdırsa, bunu virtual məkan vasitəsilə də etmək mümkündür. Bu zaman istənilən və iştirakına məhdudiyyətin tətbiq edilməsi mümkün olmayan sayda auditoriyaya xitab edə bilər. Hətta orda iştirak edənlərin sayı ilə bağlı da mübahisə yaranmaz. Çünki virtual platformalarda say məsələsinə müdaxilənin edilməsi mümkünsüzdür. Bəlkə bu cür mitinqlərin təşkili radikallara ona görə sərf etmir ki, orda "bizə icazə vermədilər", "bizə təzyiq oldu" kimi bəhanələr keçərli deyil? Bu barədə müxalifətin konstruktiv qanadını təmsil edən siyasətçilər nə düşünür?

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Bünyamin Qəmbərli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunu etmək mümkündür, lakin tez-tez mitinq etmək eşqində olanların bu platformaya maraq göstərməməsinin bəlli səbəbi var. Partiya funksioneri hesab edir ki, mitinqlər vasitəsilə çatdırılması lazım olan ismarıcları virtual məkanda da vermək olar:"Bir mtinq və ya hər hansı aksiya sadəcə etiraz deyil. Həm də əhalinin və ya hansısa siyasi qüvvənin elektoratının müəyyən məsələyə olan yanaşmasının, fikirlərinin hakimiyyətə, əhalinin başqa zümrələrinə çatdırılması vasitəsidir. Biz şahidi oluruq ki, Azərbaycanda olan radikal qüvvələrin mitinq cəhdlərinin arxasında yuxarıda sadalanan maraqlar dayanmır. Həmin radikal qüvvələrin böyük əksəriyyəti gündəmdə qalmaq üçün küçələrdə mitinq keçirmək taktikasına əl atır. Bir sözlə, şou düzəldirlər. Bu gün sosial şəbəkələrə girişdə heç bir məhdudiyyət yoxdur. Niyə bu imkandan istifadə etmirlər? Deməli, məqsəd başqa faktordu. Son vaxtlar biz hiss edirik ki, sosial şəbəkələrdə ictimailəşən mövzulara hakimiyyətin ciddi reaksiyası olur. Dəfələrlə bunun şahidi olmuşuq ki, sosial şəbəkələrdə geniş şəkildə ictimailəşən hər hansı narazılıq dərhal həllini tapıb. Bu məntiqlə radikalların virtual məkan üzərindən edəcəkləri çıxışlar da eşidiləcək. Buna maraq yoxdursa, deməli, məsələ aydındır. Çünki virtual vasitələrlə polislə qarşıdurma yaradıb diqqəti özünə cəlb etmək qeyri-mümkündür ki, bu da həmin dairələrə sərf etmir. Ən əsası isə, həmin mitiqlər vasitəsilə onlar öz havadarlarına hesabat verirlər. Maliyyələşmə mənbələrinin bir amili də məhz küçə aksiyalarının keçirilməsi tələbi ilə bağlıdır. Xaricdən gələn sifariş küçə mitinqi olursa, onu mütləq etməlidirlər. Əks təqdirdə maliyyələri kəsilə bilər. Biz partiya olaraq dəfələrlə hakimiyyətə müəyyən təkliflər vermişik və onlar zaman-zaman öz həllini tapıb. Bunlar niyə etmir? Deməli, məqsəd təklif vermək deyil, qarşıdurma yaratmaqdır. Bütün bu addımların dövlətçiliyimizə ziyanı var. Bir də virtual vasitələrlə keçirilən aksiyada bunlara nə qədər adamın qoşulduğu ortada olacaq. Adam sayı ilə manipulyasiya imkanı da heçə enir. Müxalifətin bu mövzudan yayınmağının başlıca səbəbi budur".

*Məhəmmədəli QƏRİBLİ*

# Arxı keçib "hop" deyək - Azərbaycanda pandemiyanın "ikinci dalğa" təhlükəsi... "Evdə qalmaq" hələ bitməyib...

**Arxı keçəndən sonra "hop deyərlər"aforizmi qədimlərdən gəlir. Koronavirus təhlükəsinin hələ tam sovüşmadığı bu günlərdə bir daha yada düşdü. Bəli, məhz sovuşmadığı... Məhdudlaşdırıcı tədbirlərin bir qədər yumşaldılması cəmiyyətimizdə bəziləri tərəfindən yanlış başa düşülür.**

Yumşaldılmış sahələrin siyahısı bəzən özbaşına genişləndirilir, bəziləri isə ifrata vararaq, hətta bütün karantın qaydalarının guya ləğv olunduğu kimi yozumlar edirlər. Görünür, Azərbaycanda karantin məhdudlaşdırmaları tədricən sərtləşdirildiyi kimi, onun yumşaldılmasının da tədrici proses olduğunu hələ ictimaiyyətimizə izah etməliyik. Məktəblər, kafe-restoranlar, bütün növ kütləvi toplantılar, rayon və şəhərlərlmizin bir-birindən təcrid olunması, ölkəyə kütləvi giriş-çıxışın dayandırılması, evlərdə oturmaq və sair kimi qaçılmaz tədbirlər birdən-birə olmadı. Bunları ardıcıl və düşünülmüş şəkildə tətbiq etməklə Azərbaycan həqiqətən nümunə göstərdi.

**15 mindən çox vətəndaşı xaricdən ölkəyə daşımağın nə mənası olardı ki…**

Bunların hamısını eyni vaxtda etmək olmazdı ki... Əgər bu tədbirlər mərhələ-mərhələ tətbiq edilməsəydi, Azərbaycanı bürüyəcək panikanın miqyasını təsəvvür etmək çətin deyil. Sadəcə, belə deyək - hələ dünyada dövlətlərin heç də hamısı yeni virus təhlükəsinin reallığını tam ciddi qəbul etmədiyi ilk vaxtlarda insanlarımıza "evlərdən baylıra çıxmayın" kimi qadağan çağırışı etmək olardımı? Və ya ölkəyə kütləvi gediş-gəlişi tam nəzarətə almadan insanlara demək olardımı ki, evlərdən çıxmayın? Xarici sərhədlərimizi bağlamadan şəhər və rayonlarımızı bir-birindən təcrid etməyin mənası qalardımı? Göründüyü kimi, heç bir karantin tədbiri təsadüfdən və ya kortəbii olmadı, məhz bir-birini tamamlamaq prinsipi ilə həyata keçirildi. Məntiq də hökm edir ki, ölkədə lazımi karantin yerləri və müalicəxanalar yaradılmasaydı, 15 mindən çox vətəndaşı dövlət hesabına ölkəyə daşımağın bir anlamı qalmazdı.

Məhz tədricən sərtləşdirmə üsulunun sayəsində dünya dövlətlərinin arasında ilkinlərdən olaraq pandrmiyanı ən optimal müddətdə pik həddinə çatdıra bildik, başqa bəzi ölkələrdə vəhşi tüğyan şəkli almış pandemiyanı nəzarətə aldıq, məhz ilkin dövlətlərin sırasında yoluxanlarla sağalanların say nisbətində müsbət dinamikanı ikinci tərəfə əyə bildik, artıq on günə yaxındır ki, Azərbaycanda gündəlik sağalanların sayı yoluxanları üstələyərək gedir. Nə qədər qəribə olsa da, hərdən insanların dilindən eşitdiyimiz skeptik bir "ara sözünü" də demək lazım gəlir. "Əgər koronavirus doğrudan da varsa, bizim 300, 500, hətta min nəfərlik tayfamızda niyə bircə nəfər yoluxmadı..."?! Tək-tək adamların dilindən eşidilsə də maraqlıdır. Həqiqətən də tayfasında və ya çevrəsində yüzlərlə tanıdığı adamlardan kiminsə yoluxma faktını eşitməyənlər ola bilər. Ancaq bu heç də qorxulu virusun həqiqi fakt kimi inkar edilməsinə əsas deyil və ola da bilməz. Kimsə öz nəslində, tayfasında kiminsə yoluxduğunu eşitməyibsə, buna şükr etməli və bu böyük nəticəni virusun ümumiyyətlə olmaması kimi yox, məhz dövlətin həyata keçirdiyi qadağan tədbirlərinin bəhrəsi kimi dəyərləndirməlidir. Hər şey başlıbaşına buraxılsaydı, min nəfərlik nəsildə, tayfada yüzlərlə meyitin yan-yana düzülməsi kimi üzücü mənzərəni yaşamaq zorunda qalardıq.

**Pandemiyanın ilk dalğasını ötdük, ikinci dalğanı önləməyin tək yolu qadağanları sonadək icra etməkdir…**




Mərhələli sərtləşmə ilə paralel insanların rifahı və iqtisadiyyatın çökməməsi üçün də nələrsə edildi. Bu yöndə də nəticə böyükdür. Müxtəlif sosial dəstək layihələri tətbiq edildi. Bəlkə kimlərsə bu sosial dəstək paketlərinin mahiyyətini anlamır? Sosial paket əlavə pul və güzəştlər deməkdir. Sadə desək, dövlət əhalinin rifahı naminə pul payladı, kimisi işsiz kimi, müqavilə ilə işləyən, qeyri formal işləyən, köçkün, ünvanlı yardım alan ailə və s. kateqoriyadan olan təxminən 4.8 milyon vətəndaş pul və güzəştlər aldı və ya almaqda davam edir. Təsəvvür edirsinizmi, bu, ölkə əhalisinin yarısı və 3 milyard manata yaxın pul deməkdir. Başqa ölkələr bunu edir…

Prezident Avropa bankının rəhbərinə tam haqlı dedi ki, virusla mübarizə və insanlara dəstək bizim iki ən böyük vəzifəmizə çevrilib.....Vəzifənin ikisi də uğurla icra edilir. Avropa Bankının prezidenti Çakraborti təsadüfən deməmişdi ki, Azərbaycan bu ağır şəraitdə iqtisadi artıma nail olan bəlkə də yeganə ölkədir. Ölkə pandemiyanın birinci dalğasını ram etdi.

Əgər vətəndaşlar məhdudiyyətlərin yumşalmasının mahiyyətini özbaşına yox, olduğu kimi qəbul etsə, pandemiyanın ikinci dalğasından da yan keçə biləcəyik. Demək, təhlükə hələ sovuşmayıb və pandemiyanın ikinci dalğası da gələ bilər…

Karantin yumşalmaları o demək deyil ki, 65+üstü yaş qrupuna aid insanlar küçələrə çıxsın, iş yerində haqqı ödənilməklə məcburi tətilə buraxılanlar uşaqlarını yanına salıb meydan-parklara düşsün, hər kəs özünütəcrid və sosial məsafə saxlamaq tələbini pozaraq qohum-əqrəbasını, dost-tanışlarını, əziz-xələf sevdiklərini uzun-uzadı öpüşlərə "qərq etsin", yalnız icazə ilə evdən çıxmaq qaydasını, "evdə qal" rejimini pozsun və sair. Bəlkə də bu addımları atanlar hansı təhlükənin daşıyıcısına çevrilə biləcəyinin fərqinə varmır, "mənim bir dəfə pozuntuya yol verməyimlə fəlakət olmaz" kimi düşüncə ilə dayaz və məsuliyyətsiz davranış sərgiləyir..

**Karantin qadağalarını pozan hər kəs ilk növbədə doğmaları üçün, sonra cəmiyyət üçün təhlükə mənbəyinə çevrilir**

Hələ davam edən və yumşaldılmış siyahıdan kənar qadağanların icrasına polis, başqa strukturlar geri çəkilmədən nəzarət etdiyi kimi, vətəndaşların şüurlu və məsuliyyətli hissəsi də fəal olmalıdır, hər kəs nəzərə almalıdır ki, ərköyünlük edərək evdən çıxan ağsaqqalın -ağbirçəyin bu özbaşına gəzintisi ilk növbədə həmin ailənin özünə təhlükədir və "yola verdiyimiz" həmin ağsaqqal-ağbirçək bayırdan evə yoluxdurucu virus mənbəyi kimi qayıdır...

Azərbaycan pandemiyanın yeni dalğası ilə üz-üzə gələ bilər, təhlükə hələ tam keçməyib. Qadağanların pozulması həm dövlətin virusla sonadək effektli mübarizəsini əngəlləyir, həm də yeni dalğa pandemiya təhlükəsini reallaşdırır… Bu məntiqlə, pandemiyanın yeni dalğası qayıtsa, bunun həlledici məsuliyyət payı ilk olaraq vətəndaşların, bizim üzərimizdə qalacaq… Dövlət gərəkəni edirsə, etdisə, vətəndaşlar da eyni məsuliyyəti və insanlıq borcunu icra etməlidir - karantin məhdudiyyətləri hələ bitməyib, yumşalmanı və hələ qüvvədə saxlanılan məhdudiyyətləri bir-birindən ayırmaq lazımdır...

Pandemiyanın ikinci dalğasından yan keçmək üçün məhdudiyyətlərə tam və sonadək əməl etməyə, lazım gəlsə karantin qaydalarının bir az da uzadılmasına hazır olmalıyıq…

Pandemiyanın ikinci dalğasını yaşayan ölkələr artıq var..

Azərbaycandan uzaq olsun...

Evdə qalmağa davam etməliyik…

***Aydın QULİYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Kremldən İrəvanı şoka salan yeni Qarabağ gedişləri - "... danışıqlar artıq Bakının istədiyi müstəvidədir" qənaəti ortalığı qarışdırdı

**Ermənistanın işğalçılıq siyasətinin bu ölkəyə olduqca baha başa gəlməsi koronavirus pandemiyası fonunda özünü daha qabarıq şəkildə büruzə verməyə başlayıb. Düşdüyü təcrid vəziyyəti üzündən onsuz da iqtisadi müstəvidə böyük çətinliklər yaşayan Ermənistan pandemiya səbəbindən indi daha ağır duruma düşüb.**

Ermənistan İqtisadiyyat naziri Tiqran Xaçatryan da vəziyyətin kifayət qədər ağır olduğunu bildirir:"İkinci rübün əvvəlindən etibarən iqtisadiyyat üzrə mənfi göstəricilərimiz olacaq, ancaq ümid edirik ki, bərpa üçüncü rübdən başlayacaq, bu da çox səy tələb edəcək. Yüksəliş gözləmək çətindir, ancaq mövcud şərtlərə alışmaq və uyğunlaşmaq lazımdır". Onun sözlərinə görə, ən böyük mənfi göstərici birinci rübün son iki həftəsində baş verib. Erməni mediası yazır ki, yaranmış vəziyyətdə Rusiya ilə iqtisadi münasibətlərin pisləşməsi və bu ölkədən pul göndərişlərinin dayanması vəziyyəti daha da qəlizləşdirir. "İrates" qəzeti isə yazır ki, Moskva yaranmış durumdan məqsədləri üçün istifadə etməyə cəhd edir:"Rusiya üçün Ermənistan hakimiyyətinə təzyiq baxımından daha əlverişli şərait yaranıb. Moskva bu təzyiqləri indi iki istiqamətdə daha aydın nümayiş etdirir. Bunlar Dağlıq Qarabağ münaqişəsi və qaz qiymətləri ilə bağlıdır. Rusiya xarici işlər naziri Sergey Lavrovun Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqların gedişatı ilə bağlı məlum açıqlaması və iyundan etibarən qazın qiymət artımına dair verilən anonslar da bunu təsdiqidir. Rusiya Xarici İşlər Nazirliyinin açıqlamasında Dağlıq Qarabağ münaqişəsinin həllinin olduqca həssas olduğu və bunun ictimai müzakirə mövzusuna çevrilməsinin səmərəsiz olduğu bildirilir. Kreml bununla İrəvana mesaj verir ki, məsələ hansısa formada ictimai müzakirəyə çıxarılmasın və Ermənistan deyilənlərə əməl etsin. Bunun ardınca Moskva qaz qiymətində istəyinə nail olmaq niyyətindədir".

Elə erməni siyasi ekspert Sarkis Artsruni də məsələyə eyni prizmadan yanaşır. O bildirir ki, Lavrovun və ya Rusiya Xarici İşlər Nazirliyinin qaldırdığı "səs-küyün" Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yeni situasiya yaratması barədə iddialar əsassız deyil:"Rusiyanın siyasəti Ermənistanı daha zəif hala gətirəcək. Əslində, bu qalmaqalın hədəfi Ermənistanda qeyri-stabilliyə nail olmaqdır. Son mətbuat konfransında Rusiya xarici işlər naziri Ermənistan cəmiyyətini narahat edən iki mövzu - Dağlıq Qarabağ münaqişəsi və qaz tarifi ilə bağlı danışıqlar prosesi oyunundan faydalanıb. Hər iki epizodda Lavrov bilərəkdən Ermənistan cəmiyyətini öz hökumətinə qarşı yönəltməyə çalışıb. O, bir halda Paşinyan komandasının Qarabağ məsələsində zəif tərəf olması təsəvvürü yaradır, digər halda qazın qiymətinin rəsmi İrəvana görə yüksək olması ilə bağlı xalq arasında uçurum yaradır. Bu, əslində Moskvanın Ermənistana qarşı bir növ "hibrid müharibəsi"dir və şimaldan hansı yeni "sürprizlərin" gözlənilə biləcəyi hələ məlum deyil". Digər tərəfdən, ekspertə görə, Lavrov açıq şəkildə bildirdi ki, Ermənistan qazın qiymətinin aşağı düşməsini istəyirsə, Rusiya da kapitalı olan şirkətlərin Ermənistanda mühakimə olunma siyasətinə yenidən baxmalıdır. Nümunə olaraq o, "Cənubi Qafqaz Dəmir Yolları" şirkətinə qarşı açılan cinayət işinə işarə edib. Ermənistan İstintaq Komitəsi "Cənubi Qafqaz Dəmir Yolları" QSC-nin məsul işçiləri tərəfindən aşkar vergidən yayınma, səlahiyyətlərindən sui-istifadə etmə, külli miqdarda pulları mənimsəmə, müvafiq vəzifəli şəxslər tərəfindən vəzifə səlahiyyətlərini icra etməmə və ya lazımınca yerinə yetirməmə halları barədə cinayət işi qaldırıb. Bu isə Rusiyanın xoşuna gəlmir. Sarkis Artsruni də qeyd edir ki, əslində, Rusiya xarici işlər naziri Rusiya şirkətlərinə qarşı cinayət işləri ilə qazın qiyməti "barter" etməyə dair açıq mesaj göndərir, ancaq demək olar ki, Ermənistanın dövlət strukturları bunu anlamır və şərh vermir.

Qeyd edək ki, yalnız Ermənistan dövlət aparatının üst eşelonundan baş nazirin müavini Mher Qriqoryan Lavrovun verdiyi açıqlamanı şərh edib:"Xarici şirkətlər, o cümlədən Rusiya kapitalı olanlar hər şeydən öncə Ermənistanın rezident şirkətləri, işəgötürənlər və vergi ödəyiciləridir və onların normal, səmərəli işləmələri üçün əlverişli şərait yaratmaq və təmin etməkdə ən azı marağımız var. Eyni zamanda, hökumət hər hansı bir vəziyyətə görə qanun xaricində fəaliyyət göstərən heç bir şirkətə dözməyəcək və bu baxımdan ən yüksək siyasi səviyyədə rusiyalı tərəfdaşlarımızla qarşılıqlı anlaşma mövcuddur".

Görünən odur ki, erməni tərəfi və Rusiya tərəfi reallığı fərqli qəbul edir və Lavrovun açıqlaması "ən yüksək siyasi səviyyədə qarşılıqlı anlaşma" olmasından xəbər vermir. Sarkis Artsruni qeyd edir ki, bu şəraitdə Moskvanın Qarabağ kartından da sərt şəkildə faydalanması tamamilə gözləniləndir. Ermənistanın "Aysor.am" saytı isə yazır ki, Rusiya ilə baş verənlər Nikol Paşinyan iqtidarının fərasətsizliyidir:Ermənistandakı hazırkı hökumət hakimiyyətdə qalmağa davam edərsə, həm özünü, həm də Ermənistanı məhv edəcək. Bu, bütövlükdə Ermənistanın dövlətçiliyinə təhdiddir. Buna görə Paşinyan və onun komandasının hakimiyyətdən getməsi respublikanın siyasi qüvvələrinin gündəmində olmalıdır. Ermənistanda iki il ərzində Paşinyanın ailəsinin və bir qrup dövlət məmurunun rifahının yaxşılaşması istisna olmaqla, ölkənin bütün sahələrində uğursuzluqlar qeydə alınıb. Uğursuzluqlar hər yerdədir: iqtisadiyyatdan tutmuş xarici siyasətə, Dağlıq Qarabağ münaqişəsinin həllindən tutmuş koronavirusla mübarizəyə qədər. Xarici siyasətdəki uğursuzluqlar Rusiya yönündə daha çox gözə çarpır - Sergey Lavrovun verdiyi açıqlamalar, Ermənistan liderinin Ağ Evə girməsinə belə icazə verilmədiyi məqam və Nikolun ümumiyyətlə səfərlərinin turist ziyarətlərinə bənzəməsi, orta vəzifəli şəxslərlə görüşü bunları təsdiqləyir. Qarabağ məsələsi barədə danışmağa isə ehtiyac qalmır, çünki danışıqlar masasında sənədin olması səbəbindən Paşinyanın böyük yalanı üzə çıxdı. Əslində, Rusiya Nikol Paşinyana gizli danışıqlar zamanı Dağlıq Qarabağ məsələsində güzəştə getməyə razılıq verməsi istiqamətində təzyiqləri artırır. Bunun da əsas səbəbi hakimiyyətin Rusiyanı incik salmasıdır. Elə Azərbaycan da bu vəziyyətdən olduqca məharətlə istifadə edir". Bu fonda erməni siyasi analitik Karen Bekaryan vurğulayır ki, Qarabağ danışıqları artıq Bakının istədiyi müstəvidədir:"Artıq bu gün Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı "Madrid prinsipləri" sənədinin yenilənmiş variantı ətrafında danışıqlar gedir". Onun sözlərinə görə, əslində, Lavrovun dedikləri bir yerə yığsaq görünər ki, bundan öncə "Madrid prinsipləri" sənədinin açıqlanmış hissəsində olan mərhələli danışıq prosesinin təsdiqlənməsi, elementlərin qeyd edilməsi, müzakirələr bu gün Madrid sənədinin çox pis variantı ilə yenilənənin ətrafında gedir.

Bekaryan qeyd edib ki, hazırda paket elementi prinsiplərin ümumi sənədi timsalında ikinci planda qalıb və substantiv yolla bunun müxtəlif xarakterli komponentləri müzakirə olunur:"İndi Azərbaycan Qarabağ tənzimlənməsi prosesindən ayrılmış bəzi elementləri hətta narazı qaldığı AŞPA-da belə müzakirə mövzusuna çevirmək üçün səyini əsirgəməyəcək. Burada ona dəstək verənlərdən biri də məhz Rusiya olacaq". Ermənistanın Milli Təhlükəsizlik nazirinin keçmiş müavini Qurqen Yeğiazaryan da bu fonda hakimiyyətdən narazılıq edənlər sırasındadır:"Moskva İrəvanı Qarabağ kartı ilə də vurur. Bu səbəbdəndir ki, Nikol Lavrovun bəyanatından sonra ağzına su alıb oturub". O qeyd edib ki, Lavrovun bəyanatına daha ciddi yanaşmaq lazımdır:"Hər halda, bənzər şey yox idisə, yerli-yersiz canlı yayıma girə və ən ucuz mövzulardan danışa bilən Paşinyan bu gün bunu etməli və Lavrovun bəyanatına toxunmalı idi. Ona bağlı olan mətbuat sadəcə bir işlə məşğuldur: bütün bunların hara aparacağını anlamadan Lavrovu nüfuzdan salırlar. Bunu isə Rusiyada da görürlər".

Onun sözlərinə görə, bu gün Azərbaycan mətbuatının nə yazdığını izləmək lazımdır, çünki burada prosesin daha real mənzərəsi yaradılır.

Beləliklə, qey edilənlərdən bəlli olur ki, Moskva Qarabağ məsələsində də tutduğu mövqe üzündən Ermənistanda böyük əndişə yaranmasına səbəb olub. Çünki bu vəziyyətdə Qarabağ məsələsinin daha tez müddətdə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli mümkün hala gəlir. Hazırda isə erməni-rus əlaqələrinin qeyri-standart mərhələdə olması həqiqətdir. Hesab olunur ki, İrəvan hadisələr bu səpkidə davam edəcəyi halda çox şey itirməli olacaq.

Bura Qarabağ məsələsi də şamil edilir və bu məsələdə Rusiyanın Ermənistan əleyhinə aktiv siyasətə start verib Azərbaycanla sıx işbirliyinə getməsi tam gözləniləndir. "1-in.am" portalı da yazır ki, Ermənistan hakimiyyəti olduqca çətin durumdadır:"Rusiya bizə ciddi problemlər yarada biləcək addımlar ata bilər.

**Bunlar çox incə oyundur, onu çox hazırlıqlı oynamalısan". Beləliklə, qeyd edilənlər hazırda Ermənistanın xarici siyasət sahəsində ciddi problemlər yaşamaqda olduğunu üzə çıxarır. Bunun isə, digər sferalarla yanaşı, Qarabağ məsələsinə də əhəmiyyətli dərəcədə təsir göstərməsi qaçılmaz sayılır. Hər halda, hadisələrin inkişaf axarı yaxın tezlikdə Qarabağ məsələsində müəyyən dəyişikliklərin olmasını istisna etmir. Bunu isə Ermənistanda da aydın görürlər.**

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Məlum olduğu kimi, ölkə üzrə 2020-ci il 27 aprel saat 00:00-dan etibarən məhdudiyyətlərin bir qismi yumşaldılıb. Bu da xüsusi karantin rejiminin yumşaldılması ilə əlaqədar əhalidə təhlükənin sovuşduğu təəssüratı yaradır. Karantin rejimindəki məhdudiyyətlərin bəziləri aradan qaldırıldığı üçün əhali arasında virusa yoluxma istiqamətində artım ola və prosesin ikinci dalğası başlaya bilər.**

# Karantin qaydalarının yumşalmasından sui-istifadələr başlayıb - yeni pandemiya təhlükəsi...

***Azər Həsrət:*** *"Biz koronavirusun ikinci dalğasının yaşanmasını, karantinin daha uzunmüddətli olmasını istəmiriksə..."*



Qeyd edək ki, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən karantin rejiminin yumşaldılması ilə əlaqədar qərar verildikdə əksər mütəxəssis bildirdi ki, bu, vətəndaşları arxayın salmamalıdır. Bəzi sahələrdə çalışan insanların fəaliyyətinə icazə verilməsi nəticəsində vətəndaşlar sui-istifadə hallarına yol verərsə, ölkəmizdə virusun ikinci dalğası başlana bilər. Odur ki, mütəxəssislər əhalinin bütün qaydalara əməl etməsini vacib sayırlar və yumşaldılma prosesindən sui-istifadə hallarına yol verməməyi tövsiyə edirlər.

Aprelin 27-dən bu yana əhali arasında xeyli arxayınlaşma hiss olunmaqdadır. 27 aprel tarixinə qədər sosial izolyasiyaya ciddi önəm verən, avtobusda, supermarketlərdə sosial məsafə saxlayan vətəndaşlarımızın xeyli hissəsi özünü sanki virus təhlükəsindən sığortalanmış kimi aparır. Bu onların davranışlarında müşahidə edilir.

Siyasi icmalçı Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, vətəndaşların xüsusi karantin qaydalarının yumşaldılmasından sui-istifadə etməsi qətiyyən doğru deyil. O hesab edir ki, bütün vətəndaşlar qanunun tələblərinə əməl etməsə, biz yenidən virus təhlükəsi ilə üzüzə qala bilərik. "Əlbəttə, Azərbaycanda dövlətin üzərinə düşən vəzifələr var və həmin vəzifələr bu günə qədər çox yüksək səviyyədə həyata keçirilir. Karantin qaydalarının tətbiq olunması, sosial təcrid, vətəndaşların sosial-iqtisadi problemlərinin həlli, ümumiyyətlə, insanların sağlamlığının keşiyində durmaq kimi məsələlər çox yüksək şəkildə öz həllini tapıb. Vətəndaşlardan da tələb olunan odur ki, bu qaydalar çərçivəsində yaşayaq, işləyək, hərəkət edək. Ona görə də dövlət çalışır ki, həm də insanların sərbəst, rahat hərəkət etməsi üçün də şərait yaratsın. Bu baxımdan, xüsusi karantin rejiminin müəyyən qədər yumşaldılması üçün ilkin addımlar atılıb. Amma təəssüflər olsun ki, müşahidələr Azərbaycan vətəndaşlarının bu yumşalmanı düzgün anlamadığını göstərir. Yəni, təbii ki, söhbət bütün vətəndaşlardan getmir, bəlli bir kəsimdən gedir. İnsanlar bu prosesə məsuliyyətsiz yanaşırlar. Hətta mən özüm də zəruri ehtiyaclar üçün evdən çölə çıxanda bu problemi yaxından izləməli oluram. Müşahidə edirəm ki, vətəndaşların çoxu artıq maska taxmır, ümumiyyətlə, maskaya diqqət yetirmirlər. Digər tərəfdən, bəzən insanların topa-topa küçələrdə gəzdiyini görürük. Hətta onlar sosial məsafə qaydalarına əməl etməyərək, bir-birilə çox yaxın məsafədə dayanırlar. Biz bunu daha çox supermarketlərdə müşahidə edirik. Vətəndaşların karantin rejiminin müəyyən qədər yumşaldılmasından sui-istifadə etməsi ciddi fəsadlara gətirib çıxara bilər. Ona görə də hesab edirəm ki, biz koronavirusun ikinci dalğasının yaşanmasını, karantinin daha uzunmüddətli olmasını istəmiriksə, yumşaldılma prosesindən sui-istifadə etməməli, qaydalara ciddi riayət etməliyik. Yəni sosial məsafə saxlamaq, sosial təcridə üstünlük vermək, zərurət olmadan küçəyə çıxmamaq kimi məsələlərdə diqqətli olmalıyıq. Əks təqdirdə yoluxma halları arta bilər. Son günlər, fikir verirsinizsə, ciddi şəkildə eniş var idi, amma yenidən yoluxma rəqəmi artmağa başlayıb. Üstəlik, biz nəzərə almalıyıq ki, dünyanın bir çox ölkəsində bu yoluxma yüz minlərlə insanı əhatə edir, yeni-yeni ölkələr bu "estafet"i qəbul etməkdədirlər. Yəni başqa ölkələrdə də yoluxma halları get-gedə artır. Hətta qonşu Rusiyada hər gün 5-6 min insanın bu virusa yoluxması haqqında məlumatlar alırıq".

*"Təəssüflər olsun ki, müşahidələr Azərbaycan vətəndaşlarının bu yumşalmanı düzgün anlamadığını göstərir"*

A.Həsrət, həmçinin, Gürcüstan, Ukrayna, Ermənistan və digər ölkələrdə yoluxma hallarının artdığını vurğulayaraq qeyd edir ki, bu ölkələrdə baş verənlər məsuliyyətsizliyin və vaxtında tədbirlər görülməməsinin nəticəsidir.

Azərbaycan dövlətinin isə bu probleme məsuliyyətlə yanaşaraq vaxtında tədbirlər gördüyünü deyən A.Həsrət hesab edir ki, bu gün vətəndaşın üzərinə çox böyük məsuliyyət düşür. Təəssüflər olsun ki, insanların məsuliyyət yükünü paylaşmağa o qədər də meylli olmadığını deyən siyasi icmalçının sözlərinə görə, bu da mənfi nəticələrə səbəb ola bilər: "Biz vətəndaş olaraq öz məsuliyyətimizi anlamasaq, yoluxma halları çoxalacaq və bu da öz arxasınca ölüm hallarını gətirəcək, eyni zamanda, karantin rejiminin uzadılması, hətta bəlli bir mərhələdən sonra fövqəladə rejimin elan edilməsinə gətirib çıxaracaq. Yəni buna səbəb olacaq. Ona görə də insanlarımız bir qədər də səbrli olsunlar və sosial təcrid tələblərinə əməl etsinlər, maska taxsınlar, zərurət olmadan evdən bayıra çıxmasınlar ki, qısa müddətdə biz karantin rejiminin tamamilə ləğv edilməsinə nail ola biləк. Əks təqdirdə karantin də uzanacaq, fövqəladə rejimə də keçiləcək, ümumiyyətlə, pandemiyanın nə zaman bitəcəyi ilə bağlı müsbət proqnozlar verə bilməyəcəyik".

***İradə SARIYEVA***

---

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev respublikamızda koronavirusa qarşı mübarizə tədbirlərinə başlanıldığı ilk günlərdən ölkə vətəndaşlarının sağlamlığının, sosial təminatının qorunmasını əsas vəzifə kimi müəyyənləşdirib, bütün dövlət qurumlarına diqqəti bu sahəyə yönəltməyi tapşırıb.**

# AHİK 3900 aztəminatlı ailəyə 68 ton ərzaq sovqatı göndərdi



Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası da Prezident İlham Əliyevin koronavirus pandemiyası ilə bağlı həyata keçirdiyi tədbirlərdə yaxından iştirak edir.

Sosial dəstək tədbirləri çərçivəsində Azərbaycan həmkarlar ittifaqları təşkilatları qısa müddət ərzində 1 milyon 600 min manatdan çox vəsait xərcləyib. İndiyədək 17 mindən artıq aztəminatlı ailəyə ərzaq yardımları göstərilib, 631 min 600 manat məbləğində vəsait bu məqsədlər üçün xərclənib, 148 min manat dəyərində qoruyucu vasitələr alınaraq paylanıb. Həmkarlar ittifaqları Koronavirusla Mübarizə Fonduna ümumilikdə 398 min 600 manat vəsait köçürüblər.

Bu günlərdə AHİK-in İcraiyyə Komitəsi xüsusi yardıma və qayğıya ehtiyacı olan aztəminatlı ailələrə, təqaüdçülərə ərzaq yardımlarının paylanmasını nəzərdə tutan yeni qərar qəbul edib. Bu məqsədlə respublikanın 76 şəhər və rayonunda yaşayan 3900 aztəminatlı ailəyə ərzaq sovqatın paylanması qərara alınıb. Ümumi həcmi 68 ton olan ərzaq sovqatları hər bir ailə üçün vacib olan gündəlik tələbat mallarından ibarətdir.

Aprelin 29-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təşkil etdiyi maşın karvanı ərzaq sovqatlarını ünvanlarına çatdırmaq üçün respublikanın şəhər və rayonlarına yola düşüb. Azərbaycanın bütün bölgələrini əhatə edəcək bu aksiyada yerlərdəki həmkarlar ittifaqı fəalları da iştirak edəcək.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası bildirir ki, koronavirus pandemiyası şəraitində həmkarlar ittifaqları təşkilatları tərəfindən maddi və mənəvi yardımlar göstərilməsi gələcəkdə də davam etdiriləcək.

***Baki-xeber.com***

**Ermənistanın Qavar rayonunda baş vermiş son olay Nikol Paşinyan iqtidarı üçün ciddi zərbə olmaqla yanaşı, ölkədə kriminal mühitin əhəmiyyətli dərəcədə pisləşdiyini üzə çaxarıb. Baş verənlərlə bağlı artıq hakimiyyət sərt tənqid obyektinə çevrilib. "Armenianreport" portalı bu xüsusda yazır:**

# Paşinyan Ermənistan dövlətini bitirdi - ölkədə kriminogen durum nəzarətdən çıxıb, narazılıq pik həddə...

"Təəssüf ki, Ermənistanda insanların bir-birini öldürməsi artıq normaya çevrilir. Bu o zaman baş verir ki, insanlar polisə, ədalət məhkəməsinə inanmır. Qavarda baş verənlər insanların artıq kriminal mühitlə barışdığını göstərir. Olaylar həm də hakimiyyətin ölkəni idarə etmək bacarığında olmadığını ortaya qoydu. Paşinyan diqqəti sadəcə əvvəlki hakimiyyətlə mübarizəyə yönəltdi və Ermənistanda nəzarəti itirdi. Ona görə də Ermənistanda insanların bir-birini öldürməsi artıq adi normaya çevrilir".

Xatırladaq ki, Qavar rayonunda qeydə alınan silahlı insident nəticəsində 4 nəfər öldürülüb, daha 4 nəfər yaralanıb. Bildirilir ki, Qavar şəhəri və Noratus kəndinin gənc sakinləri naməlum səbəbdən mübahisə ediblər, daha sonra söhbətə böyüklər qarışıb. Nəticədə baş vermiş atışmada hərbi müstəntiq Zorik Paronikyan və onun dostu Vahe Avetisyan qətlə yetirilib. Məlumata görə, atışmada öldürülən hərbi polisin müstəntiqinin qohumları və Avetisyanın qardaşının başçılığı altında olan dəstə xəstəxanaya gələrək silahlı insident zamanı yaralanan və Qavardan olan iki şəxsin boğazını kəsməklə onları qətlə yetiriblər. Qeyd edilir ki, xəstəxanada öldürülən şəxslər Armen və Xaçik adlı qardaşlardır. Məlumata görə, rayonda nəzarətdən çıxmış vəziyyəti idarə etmək üçün hadisə yerinə Qavar polisinin rəisi Arman Sarkisyan gəlib. Amma xəstəxanada vəziyyət elə gərginləşib ki, hətta müstəntiqlər ora daxil ola bilməyiblər. "Armlur.am"ın məlumatına görə, dəmir alətlərlə silahlanmış bir qrup şəxs polis əməkdaşlarının olduğu xəstəxanaya soxulub. Onlar xəstəxananın əmlakını dağıtmağa başlayıblar, bundan sonra polis kordonunu yararaq palataya giriblər və yaralıların boğazını kəsiblər. Dəstə üzvləri bundan sonra xəstəxananı tərk ediblər. Yerli qubernator Qnel Sanosyan isə bildirib ki, xəstəxanaya 500-ə yaxın insan soxulub. Sayt daha sonra yazır:"Hadisə zamanı Ermənistanın polis rəisi Arman Sarkisyan polislərlə birlikdə xəstəxanada olub. Lakin Sarkisyanın xəstəxanada olmadığını qəbul etsək belə, ona xəstəxanaya daxil olmaq və insanları "kəsmək" haqqında dərhal məruzə etməyiblər? Həmin vaxt o niyə vəziyyəti nəzarət altına götürmək üçün "yeni hadisə yerinə" tələsməyib? Kimdən çəkinib və ya qorxub? Bundan əlavə, polis qüvvələri xəstəxananın ərazisinə nəzarət edirdisə, niyə xəstəxanaya daxil olan noratusluların girişinin qarşısını almaq üçün heç olmasa havaya atəş açmayıblar? Olaylarda polisin də əlinin olması artıq istisna deyil".



Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanetsyan baş verənləri belə şərh edir:"Ermənistanın baş naziri Nikol Paşinyanın səriştəsiz rəhbərliyi nəticəsində polis hüquq-mühafizə orqanı kimi hazırkı şəraitdə mövcud deyil. Qavarda baş vermiş hadisələr bu həqiqəti tamamilə təsdiqləyir". Erməni hüquq müdafiəçisi Arsen Babayan isə bildirir:"Ermənistan hakimiyyətinin artıq sonu yaxınlaşır. Bunun yeganə günahkarı onlar özləridir. Baş nazirin birbaşa tabeliyində olan Ermənistan polis rəisinin nəzərindəki polis kordonu dağıdılır, xəstəxanaya soxulurlar və yaralıların boğazlarını gözlərinin önündə kəsirlər. Baş nazirin sözçüsü cəmiyyətə yanlış məlumat verir. Nikol Paşinyan isə öz "yaradıcılığında" Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanetsyanın adını çəkməyə çalışır".

Bütün bunlar fonunda ölkənin diqqətini daha bir hadisə cəlb edib. Belə ki, bu olayın ardınca Ermənistanda bir qrup maskalı şəxs Noratus kəndində evlərə hücum edib. Bildirilir ki, 30 nəfərdən artıq maskalı şəxs əvvəl Qriqor Mnoyan adlı sakinin evinə hücum edib, onu və anasını döyüb, 6 aylıq hamilə həyat yoldaşına isə təzyiq göstəriblər. Daha sonra onlar kimləsə telefonla danışaraq yanlış ünvana gəldiklərini deyiblər. Ardınca digər kənd sakinlərinin evlərinə basqın ediblər. Hadisənin motivləri məlum deyil. Amma erməni mediası bunlar fonunda ölkədə kriminal idarəçiliyin artıq ön plana çıxdığını bildirir. Qeyd olunur ki, elə bu səbəbdən Ermənistan parlamentinin vitse-spikeri Alen Simonyan müxalif bloqqer Artur Danielyanla söhbətini hüquq yox, kriminal aləmə xas üslubda həll edir. Belə ki, Alen Simonyanla "Adekvad" ictimai-siyasi təşkilatının üzvləri arasında dava olub. "Adekvad" üzvlərindən Konstantin Ter-Nakalyan təşkilatın rəhbəri Artur Danielyanın burnu əzilmiş haldakı şəklini sosial şəbəkədə yerləşdirərək ona Simonyanın hücum etdiyini yazıb.

**Qeyd edək ki, baş nazir Nikol Paşinyanın siyasətinə qarşı çıxan "Adekvad" ölkənin Soros Fondu tərəfindən idarə olunduğunu bildirir. "Armenianreport" portalı yazır ki, bütün bunlar hüquqi dövlətin yoxluğunun göstəricisidir:"Zəif hakimiyyət dövlətçiliyi də zəiflədib. Özü də kritik nöqtəyə qədər zəiflədib. Ermənistan bir dövlət kimi məhv olur. Bundan sonra da küçə qanunlarının ön planda yer alması artıq qaçılmaz sayılır. Hakimiyyət bunu önləmək iqtidarında deyil".**

***Nahid SALAYEV***

**Dünya iqtisadiyyatında koronavirus pandemiyası üzündən yaşanan çətinliklər fonunda böyük narahatlıq predmetinə çevrilən məqamlardan biri də ABŞ-da baş verənlərdir. Hazırda ABŞ iqtisadiyyatında yaşanan böyük çətinlik və geriləmələr fonunda dollara etimadın əhəmiyyətli dərəcədə azalması müşahidə olunur.**

# Dolların mövqeyi ciddi şəkildə sarsılır, manat güclənə bilər...

Bu fonda artıq bir sıra ölkələr ehtiyatlarında olan dolları yenidən qızılla əvəzləməyə başlayıb. Dünya Bankı da bu xüsusda bildirir ki, baş verənlərlə əlaqədar bu il qızılın unsiya qiymətinin əvvəlki ilə nisbətən 14,9 faiz artacağını proqnozlaşdırır.

Amma hesab edilir ki, dolların zəifləməsi fonunda qızıla tələb artarsa, qızıl daha çox bahalaşa bilər. ABŞ-da baş verənlər isə dolları zəifledir. Belə ki, koronavirusun təsiri ilə bu ilin ilk rübündə ABŞ-da ümumi daxili məhsul (ÜDM) 4,8% azalıb. Bununla da son 6 ildə ilk dəfə ABŞ iqtisadiyyatında azalma qeydə alınıb. Hesabat dövründə fərdi xərclər mağaza və restoranların bağlanması ilə proqnozları üstələyərək 7,6% azalıb. Belə ki, birinci rübdə fərdi xərclər son 40 ilin minimumunu yeniləyib. "Reuters" agentliyi cari ilin ikinci rübündə ölkənin daha çox itkiyə məruz qalacağını bildirib. İqtisadçı Kris Rupki agentliyə açıqlamasında ikinci rübdə ölkəni ağır vəziyyətin gözlədiyini deyib:"İqtisadiyyat ilk rübdə belə güclü zərər görübsə, ikincinin nə dərəcədə dərin olacağını soruşmayın. Bu tam fəlakət olacaq". Bu arada o da məlum olub ki, ABŞ-da iyun ayına qədər işsizlik səviyyəsi 16-20 faizə qədər arta bilər. Ölkə prezident Donald Trampın iqtisadi müşaviri Kevin Hassetin sözlərinə görə, hesablamalar 1930-cu ildən indiyə qədər işsizlik səviyyəsinin ən yüksək həddə çıxacağını deməyə əsas verir:

"May və iyul aylarında iqtisadi göstəricilər indiyə qədər gördüyümüz ən pis rəqəmlər olacaq". Qeyd edək ki, ABŞ-da koronavirus yayılmağa başladığı mart ayından etibarən işsizlik və yoxsulluq sürətlə artır. 14 martdan indiyə qədər 25 milyondan çox insanın işsiz qaldığı deyilir. Bu fonda ABŞ federal hökumətinin borc öhdəliklərinin ümumi həcmi rekord səviyyə sayılan 24,5 trilyon dollara çatıb. Buna həm də koronavirusla mübarizə çərçivəsində həyata keçirilən tədbirlər səbəb olub. Hesablamalar göstərir ki, yanvarın 1-dən bəri ABŞ-ın dövlət borcu 1,5 trilyon dollar artıb. Düzdür, Donald Tramp koronavirus pandemiyasının nəticələrinin aradan qaldırılması üçün ayrılan vəsaitlə bağlı Birləşmiş Ştatların dövlət borcunun artmasının onu narahat etmədiyini deyib. Xatırladaq ki, Donald Tramp mart ayının sonlarında iqtisadiyyatı stimullaşdıran 2 trilyon dollar həcmində tədbirlər barədə qanun layihəsini imzalayıb. Sənəd, əsasən işsizlik üzrə müavinətləri, xəstəxanalara yardımları və bəzi sahələrə maliyyə dəstəyini nəzərdə tutur. Bir qədər əvvəl "The Washington Post" qəzeti koronavirusun yayılması fonunda cari il ABŞ-ın dövlət və korporasiya borclarının artaraq rekord həddə çatacağı barədə məqalə dərc etmişdi. Proqnozlara görə, cari ildə federal büdcənin xərcləri gəlirlərini 4 trilyon dollar üstələyəcək.

Beynəlxalq Valyuta Fondunun məlumatına görə, koronavirusun yayılması ilə mübarizə çərçivəsində atılan addımlar səbəbindən ABŞ-ın dövlət borcu 2020-ci ildə ümumi daxili məhsulun 131,1 faizinə qədər yüksələcək. Birləşmiş Ştatların Ticarət Nazirliyi nəzdində fəaliyyət göstərən İqtisadi Analiz Bürosunun məlumatına əsasən, ötən ilin sonunda ölkədə ümumdaxili məhsulun həcmi 21,73 trilyon dollar təşkil edib. Hazırda ABŞ koronavirusa yoluxma və ölüm hallarının sayına görə dünyada birinci yerdə qərarlaşıb. Ölkənin virusdan iqtisadi müstəvidə də böyük zərər görməsinin davam edəcəyi proqnozlaşdırılır. Məhz bu fonda iqtisadiyyat sürətlə zəifləyir və buna paralel olaraq da dollara etimad azalır. Artıq son birja əməliyyatlarında dolların sürətlə dəyərdən düşməsi müşahidə olunur. ABŞ-ın mərkəzi bankının funksiyalarını yerinə yetirən Federal Ehtiyat Sisteminin, gözlənildiyi kimi, illik uçot dərəcəsini 0-0,25 faiz saxlaması da prosesə əlavə təkan verib. Qurum özü qərarını belə izah edir:"Davam edən böhran yaxın vaxtlarda iqtisadi fəallığa, məşğulluğa və inflyasiyaya əhəmiyyətli dərəcədə təsir edəcək və bu, orta müddətli perspektivdə iqtisadiyyat üçün əhəmiyyətli risqlər yaradır. Bu hadisələri nəzərə alaraq, komitə federal fondlar üzrə payın məqsədli diapazonunu 0-0,25 faiz səviyyəsində saxlamağa qərar verdi".

Xatırladaq ki, Federal Ehtiyat Sistemi uçot dərəcəsini martın 16-da 0-0,25%-ə qədər endirib və koronavirusa görə risqlərlə mübarizə çərçivəsində uçot dərəcəsini ciddi şəkildə azaldıb. Tənzimləyicinin həmin vaxt yaydığı açıqlamada qeyd edilirdi ki, koronavirusun fəsadları qısamüddətli perspektivdə



iqtisadi fəallığa təsir göstərəcək və bu, perspektiv üçün təhlükə yaradır. Bütün bunlar, yuxarıda qeyd olunduğu kimi, dollara də təsir edərək onu ucuzlaşdırır. Ümumiyyətlə, cari il ərzində dolların əhəmiyyətli dərəcədə dəyər itirməsi gözlənilir. Hesab edilir ki, bu durumda Azərbaycanda da manat-dollar səviyyəsində dəyişiklik mümkündür. Yenə hökumət müdaxiləsi olmasa, dollar manat qarşısında müəyyən qədər dəyər itirə bilər. Mərkəzi Bankın sədri Elman Rüstəmov isə xatırladır ki, Azərbaycanda dollarla bağlı sadəcə müəyyən spekulyasilar olub və onun da qarşısı alınıb:"Milli valyutanın məzənnəsinə çox ciddi spekulyativ hücum oldu, lakin bu hücumun qarşısını aldıq və valyuta bazarında vəziyyət sabitləşib. Bu gün biz üzvü, səhmdarı olduğumuz beynəlxalq təşkilatlarla məsləhətləşirik, onlar Azərbaycandakı vəziyyəti çox müsbət qiymətləndirirlər. Bu həm Dünya Bankına, həm də Beynəlxalq Valyuta Fonduna aiddir. Azərbaycanın böyük valyuta ehtiyatları və aşağı xarici borcu imkan verir ki, biz çox ciddi manevrlər edək". Məhz bu şəraitdə manatın dünya və ABŞ iqtisadiyyatında baş verənlər fonunda möhkəmlənmə ehtimalı da artır.

***Ramil QULİYEV***

# Ərəb şahzadəsinin Ermənistanda seks-turizmə investisiya planları...

**İsmayıl Tanrıverdi:** *”Ərəbləri Ermənistanda yalnız bu ölkənin qadınları cəlb edir”*

**Pandemiya ilə mübarizədə heç bir tədbir görmək gücündə olmayan, iqtisadi cəhətdən kifayət qədər kasıb olan Ermənistanın vəziyyəti bütün dünyaya məlumdur. Nikol Paşinyan Baş nazir seçildikdən sonra Ermənistanda vəziyyət daha da ağırlaşmağa başlayıb, ölkənin çox zəif olan iqtisadiyyatı iflic vəziyyətə düşüb.**

Müxtəlif dövlətlərin ianəsi hesabına mövcudluğunu zor-bəla ilə qoruyan Ermənistan vəziyyətdən çıxış yolları axtarır. Erməni cəmiyyətində baş verən prosesləri ciddi izləyən mütəxəssislərin bildirdiyinə görə, bu ölkə yeni bir turizm növünün yaradılmasında maraqlıdır. Qəribə səslənsə də, bu gün Ermənistanda seks turizminin yaradılması üçün işlər görülür. Məlumatlara görə, postpandemiya dövründə ermənilər "seks turizmi"ni inkişaf etdirmək istəyirlər.

Yeri gəlmişkən, erməni qadınları dünyada ilk seksual xidmət göstərən qadınlar kimi tarixə düşüblər. Qədim sənətin mahir icraçısı olan erməni qadınlarının ta qədimlərdən Anahit məbədində müxtəlif ölkələrdən gələn kişilərə seksual xidmət göstərmələri haqqında kifayət qədər məlumat var.

Tarixçilər qeyd edirlər ki, erməni müəllifləri Anahiti daha çox Afrodita və Artemida ilə müqayisə etsələr də, adları çəkilən iki ilahədən fərqli olaraq, Anahit daha çox fahişəlik ilahəsi kimi şöhrət tapıb, onun şərəfinə ermənilərin kütləvi yaşadığı yerlərdə, ayrı-ayrı ərazilərdə ucaldılan və yüzlərlə erməni qızları və gənc oğlanların saxlandığı məbədlər dünyanın müxtəlif ölkələrindən gələn kişilər tərəfindən ziyarət edilib.

Strabondan başlayaraq, antik tarixçilərin əksəriyyəti Anahitin fahişəlik ilahəsi olması və onun şərəfinə inşa edilmiş məbədlər haqqında maraqlı məlumatlar verirlər. Strabon xüsusi olaraq qeyd edir: "Anahitə ibadət edənlər fahişəliyə qurşanmışdılar... Həmin vaxt "Böyük Ermənistan" hökmdarı Trdat Anahitə nəcib qadın, erməni xalqının isməti, şöhrəti və canlandırıcısı, böyük Aramazdın qızı və arvadı kimi həmd edirdi".

Daha sonra Strabon "...Bu ölkənin qanunlarına görə, adlısanlı ailələrin qızları yalnız ilahənin məbədində uzun müddət ərzində fahişəliklə məşğul olduqdan sonra ərə gedə bilərdilər. Bundan sonra onların ərə getməsində heç bir problem olmurdu" - deyə yazırdı.

Göründüyü kimi, bu gün Ermənistanda nənələrindən miras qalan bu qədim sənəti yaşatmaq üçün ciddi cəhdlər var. Əhalisi ac-yalavac olan bu ölkənin turizm potensialının da zəif olması onların "seks turizmi"ni inkişaf etdirməsindən başqa əlaclarının olmadığını göstərir.



*”Ərəb şahzadəsinin əsas niyyəti...”*

Son zamanlar ərəb şahzadələrindən birinin Ermənistan rəhbərliyilə ciddi əlaqələr qurduğu və bu ölkəyə investisiya qoymaq niyyətində olduğu deyilir.

Onu da qeyd edək ki, dəfələrlə Azərbaycan Prezidenti İlham Əliyev İslam dünyası ilə bağlı keçirilən tədbirlərdə, müsəlman ölkələrinin rəhbərləri, eləcə də İslam Əməkdaşlıq Təşkilatının rəhbəri ilə görüşlərundə müsəlman aləmində birliyin, islam həmrəyliyinin möhkəmləndirilməsi ilə bağlı çağırışlar edib. Bu baxımdan, ölkə başçısının İslam dünyasına müraciətləri çox əhəmiyyətlidir. Azərbaycan dövlətinin islam həmrəyliyinin formalaşmasına verdiyi töhfələrin bütün müsəlman dünyası üçün bir nümunə olduğu məlumdur.

Amma bəzi müsəlman dövlətlərinin islam həmrəyliyi prinsiplərindən yayınaraq Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistanla əlaqələr yaratması anlaşılan deyil. Ərəb şahzadəsinin Ermənistana investisiya qoymaq planları da birbaşa islam həmrəyliyinə zərbə vurmağa yönəlib.

Prosesləri yaxından izləyən tanınmış ermənişünas İsmayıl Tanrıverdinin sözlərinə görə, ərəb şahzdələrinin biri hazırda Ermənistana yardımlar edir və koronavirusla mübarizədə aciz qalan bu ölkəyə böyük yük təyyarəsi ilə dolu tibbi ləvazimatlar və digər ianələr gətirib. Hətta onun bu yardımı Armen Sarkisyana hədiyyə kimi gətirdiyi haqqında erməni mediasında məlumatlar yer alır: "Ərəb şahzadəsinin hazırda Ermənistana koronavirusla əlaqədar yardımlar etdiyi haqqında erməni mediası məlumatlar yayır. Ərəb şahzadəsinin Ermənistana böyük bir investisiya qoymaq haqqında planlarının olduğu barəsində də erməni mediası yazır.

Hazırda ermənilər ərəblərlə ciddi əlaqə qururlar. Hətta ərəb şahzadəsi Ermənistana 3 milyard dollar sərmayə qoyaraq, guya bu ölkədə bütün Qafqazda ən böyük olan xəstəxana tikmək niyyətindədir. Əslində isə məqsəd başqadır. Məsələ burasındadır ki, ərəb şahzadəsinin əsas niyyəti Ermənistanda "seks turizm" yaratmaq və buna investisiya qoymaqdır. Ərəbləri Ermənistanda yalnız bu ölkənin qadınları cəlb edir və onlar burada "seks turizmi" yaratmaq planları qururlar. Görünən budur. Çünki ərəblər iqtisadiyyatı, heç bir resursu olmayan Ermənistana niyə investisiya qoyub orada xəstəxana tikmək istəsinlər ki? Ermənistan ərəblərin əsasən dediyim məsələyə görə maraq dairəsindədir" - deyə müsahibimiz qeyd etdi.

***Əli TURABOV***

**"S&P Global Ratings" beynəlxalq reytinq agentliyi koronavirus (COVID-19) pandemiyası və neftin qiymətinin ucuzlaşması ilə əlaqədar 2020-ci ildə Azərbaycan banklarında problemli kreditlərin xüsusi çəkisinin 2019-cu ilin sonuna olan təxminən 8%-ə qarşı 12-15%-ə qədər artacağını proqnozlaşdırır.**

# Beynəlxalq agentlikdən Azərbaycan barədə mübahisəli proqnoz - problemli kreditlər 20 faiz arta bilərmi...

***Fuad İbrahimov:** "Hesab edirəm ki, proqnoz nəzəri baxımdan düzgündür"*




Agentliyin qiymətləndirməsində qeyd edilir ki, Azərbaycan banklarının biznesinin artım templərini və mənfəət göstəricilərini məhdudlaşdıra biləcək risqlər artır: "Bu vəziyyət bankların kapital ehtiyatlarının həcminə, aktivlərinin keyfiyyətinə və resurs bazasının sabitliyinə gözlədiyimizdən daha çox mənfi təsir göstərə bilər".

Agentliyin qiymətləndirmələrinə görə, 2019-cu ildə kreditləşmə həcmlərinin (əsasən pərakəndə seqmentdə) bərpasına baxmayaraq, S&P hələ də hesab edir ki, Azərbaycan iqtisadiyyatı korreksiya mərhələsindədir və bu, bank sektoruna güclü təsir göstərir: "Biz baza ssenarimiz çərçivəsində ehtimal edirik ki, mürəkkəb iqtisadi vəziyyət bir çox korporativ və fərdi borcalanların, habelə kiçik və orta biznes müəssisələrinin öz borc öhdəliklərinə xidmət göstərmək qabiliyyətinin pisləşməsinə səbəb olacaq. Proqnozlarımıza görə, 2020-ci ildə problemli kreditlərin payı 2019-cu ilin sonuna olan təxminən 8%-ə qarşı 12-15% təşkil edəcək. Ehtiyatların yaradılması ilə bağlı əlavə xərclərin kreditlər üzrə mümkün itkilərə, bankların gəlirlilik göstəricilərinə təsiri 2020-2021-ci illər ərzində paylaşdırıla bilər ki, bu da bankların kapital ehtiyatlarının azalmasını müəyyən dərəcədə məhdudlaşdıra bilər".

S&P-nin gözləntilərinə görə, 2020-ci ildə Azərbaycan bankları tərəfindən yeni kreditlərin verilməsi templəri azalacaq.

Maraqlıdır, Azərbaycan banklarında problemli kreditlərin xüsusi çəkisinin 15 faizədək artacağı ilə bağlı verilən proqnoz nə dərəcədə realdır? Həqiqətən də deyildiyi qədər problemli kreditlər artacaqsa, bu, iqtisadiyyat üçün hansısa ciddi problem yarada bilərmi?

> *"Ancaq bütün bunlara rəğmən, problemli kreditlər artmaya bilər"*

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimov sözügedən proqnoza bir neçə aspektdən yanaşdı: "İstənilən ölkədə problemli kreditlərdə il ərzində artım müşahidə olunursa, bu, artıq bankların yük altında qalması deməkdir. Eyni zamanda, bu, iqtisadiyyatda müəyyən problemlərin yaranmasının işarəsidir. Bu nöqteyi-nəzərdən, "S&P Global Ratings" beynəlxalq reytinq agentliyinin bunu məlum səbəblərlə əlaqələndirməsi nəzəri cəhətdən düzgündür. Ona görə ki, Azərbaycan iqtisadiyyatı əsaslı şəkildə neft amilindən asılıdır. Beləliklə, neftin ucuzlaşması biznes aktivliyində və iqtisadiyyatda müəyyən çətinliklər törədəcək. Bu fonda həqiqətən biznes və istehlak kreditlərində müəyyən çətinliklər yaranacaqsa, bu, birmənalı şəkildə neft və koronavirusla əlaqələndiriləcək.

Biznes mühitində çətinliklər yaransa, şübhəsiz ki, kredit götürən həm fiziki, həm də hüquqi şəxslər üçün müəyyən çətinliklər yaranacaq. Bu zaman problemli kreditlər arta bilər. Çünki bütün bunlar zəncirvari olaraq bir-birindən asılıdır. Biznes mühitində çətinlik yaranan kimi, ödənişlərdə çətinliklər ortaya çıxır. Bu baxımdan hesab edirəm ki, proqnoz nəzəri baxımdan düzgündür. Ancaq bütün bunlara rəğmən, problemli kreditlər artmaya bilər. Biz iqtisadi fəaliyyəti artırmaqla bunun qarşısını ala bilərik. Ona görə də bu, sadəcə olaraq, proqnozdur".

***Vidadi ORDAHALLI***

---

**Pandemiya ilə mübarizə tədbirləri çərçivəsində həyata keçirilən əhəmiyyətli işlərdən biri də 65 yaşdan yuxarı olan şəxslərin sosial izolyasiya qaydalarına əməl etməsi ilə bağlı məsələ idi. Bildiyimiz kimi, Azərbaycan ərazisində koronavirus təhlükəsi ilə bağlı 65 yaşdan yuxarı şəxslərin evdən bayıra çıxması qadağan edilib.**

# 65 yaşüstü qocalar arasında karantin qaydalarını pozmaq meylləri - qadağa qüvvədədir, təhlükə bitməyib...

***Elçin Mirzəbəyli:** "...yaşı 65-dən yuxarı olan insanların öz həyatları üçün təhlükə yaradır"*



Ölkəmizdə özünütəcrid, "Evdə qal!" kampaniyası davam etdirilməli olduğu halda, yaşı 65-dən artıq olan bəzi vətəndaşlar xüsusi karantin rejiminin yumşaldılması ilə əlaqədar olaraq qaydalara əməl etmək istəmirlər. Baxmayaraq ki, hələ onlarla bağlı bu qadağa qüvvədədir, onlar yenə də küçədə, mağazada, ictimai nəqliyyatda görünməyə başlayıblar. Məlum olduğu kimi, yumşalma prosesinin 65 yaşdan yuxarı olan şəxslərə aidiyyəti yoxdur. Onlar sosial təcrid qaydalarına əməl edərək evdə qalmalı və bayıra çıxmamalıdırlar. Yaşı 65-dən yuxarı olan insanların virusa yoluxma risqinin böyük olması ilə bağlı təhlükəni nəzərə alaraq, dövlətin belə bir qərar qəbul etməsi müsbət haldır.

"Xalq cəbhəsi" qəzetinin baş redaktoru, tanınmış politoloq Elçin Mirzəbəyli bizimlə söhbətində yaşlı nəslin xüsusi karantin rejiminin yumşaldılmasından sui-istifadə etməməli olduğunu, onların evdən çölə çıxmamalarını bildirdi. "Xüsusi karantin rejimi ilə bağlı tətbiq olunan məhdudiyyətlərin yumşaldılması, əslində, vətəndaşların üzərinə daha böyük məsuliyyət qoyur. Çünki bu halda karantin rejimi insanın öz düşüncəsində olmalıdır. Yəni artıq bu prosesdə hakim rolu vicdan oynayır. Bu aspektdən də hər bir insan, hər bir vətəndaş başqalarının da teleyini düşünməli, istəmədən belə böyük insan faciələrinə səbəb olan hala yol verməməlidir. Xüsusi karantin rejiminin yaratdığı bir sıra faktorlar, psixoloji amillər də var. Şübhəsiz ki, insanların uzun müddət qapalı bir şəraitdə qalması onların psixikasına təsir göstərir. Təbii ki, onlar hava almağa çalışırlar və müəyyən qədər də olsa həmin psixoloji durumdan xilas olmağa çalışırlar. Əslində, bu, anlaşılması mümkün olan məsələdir. Lakin situasiya ondan ibarətdir ki, belə davranışlar, ilk növbədə, yaşı 65-dən yuxarı olan insanların öz həyatları üçün təhlükə yaradır. Yəni nə qədər çətin olsa da belə, indiki şəraitdə dözməkdən, səbr etməkdən, həmçinin, öz həyatını və başqalarının həyatını qorumağa çalışmaqdan başqa seçim yoxdur. Bu vəziyyət, bu problem qlobal dünyanın qarşılaşdığı bir situasiyadır. Yəni bu, təkcə bir ölkənin sərhədləri çərçivəsində, yaxud bir ölkənin idarəçilərinin istək və arzularına uyğun olaraq həyata keçirilən proses deyil".

> *"Vətəndaşlar tərəfindən yol verilən məsuliyyətsiz davranışlar qəbuledilməzdir"*

E.Mirzəbəylinin sözlərinə görə, Azərbaycan dövləti vətəndaşın sağlamlığını, həyati təhlükəsizliyini qorumaq üçün bütün mümkün vasitələrdən istifadə edir. Müsahibimiz vurğuladı ki, bu istiqamətdə həyata keçirilən qlobal tədbirlər göz önündədir.

"Belə bir şəraitdə indiyə qədər görülən işlərin faktiki olaraq boşa verilməsi istiqamətində vətəndaşlar tərəfindən məsuliyyətsiz davranışlar qəbuledilməzdir. Yəni nə qədər çətin olsa da belə, müəyyən zaman kəsiyində insanlar səbr etməli, təhlükənin tam aradan qaldırılması üçün müvafiq dövlət qurumlarına, bu istiqamətdə yorulmaz fəaliyyət göstərən insanlara dəstək göstərməlidirlər. Bu vaxtı biz həm özümüz üçün, həm də bizim həyatımızı qoruyan insanlar üçün qənaət bilməliyik, səbrli olmalıyıq" - deyə E.Mirzəbəyli qeyd etdi.

***İradə SARIYEVA***

**Xüsusi karantin rejimi dövründə fəaliyyəti bərpa olunan sahələrdən biri də geyim mağazaları, ayaqqabı, dəri məmulatlarının satıldığı dükanlardır. Dükanların açılması xəbərini eşidən əksər insan geyim mağazalarına üz tutdu. Ancaq həmin insanlar koronavirus pandemiyasının tam sovuşmadığının fərqində deyillər.**

# Açılmış geyim mağazaları virus yayılma mənbəyi ola bilər - nə etməli...

***Nabil Seyidov:** "Geyim mağazalarında paltarların mütəmadi olaraq müxtəlif insanlar tərəfindən geyinilməsi koronavirusa yoluxma risqi yarada bilər"*

***Aygün Əliyeva:** "...gün ərzində bir neçə dəfə dezinfeksiya işləri aparılmalıdır"*



Çünki geyim dükanlarında satılan par-paltarla insanlar əl ilə təmas edir. Beləliklə, virusun yoluxma ehtimalı daha da artır. Nəzərə almaq lazımdır ki, geyim mağazalarında satılan paltarların mütəmadi olaraq müxtəlif insanlar tərəfindən uyğunluğunu yoxlamaq məqsədilə geyinilməsi adi haldır.

Satıcılar deyirlər ki, müştəriyə paltarı geyinib uyğunluğunu yoxlamaq qadağası qoymaq mümkünsüzdür.

Səhiyyə Nazirliyinin ictimai səhiyyə və islahatlar mərkəzinin şöbə müdiri Nabil Seyidov bildirdi ki, koronavirus ən çox yaxın təmas zamanı bir insandan digərinə keçir. Amma geyim mağazalarında paltarların mütəmadi olaraq müxtəlif insanlar tərəfindən geyinilməsi koronavirusa yoluxma risqi yarada bilər: "Ona görə də mağazalarda qabaqlayıcı tədbirlərin görülməsi vacibdir".

Həmsöhbətimiz onu da əlavə etdi ki, hər kəsin gigiyenik qaydalara mütləq qaydada əməl etməsi şübhəli olduğu üçün, bu məsələdə mağaza sahibləri diqqətli olmalıdırlar: "Yeni mağazanın girişində dezinfeksiyaedici məhlullar qoyulmalı, personalın tibbi maska, əlcəkdən istifadə etməsi təmin edilməlidir. Bundan başqa, geyim dükanlarında hər ölçüyə uyğun konkret paltar nümunələrindən istifadə olunsa daha yaxşı olar".

Həkim Aygün Əliyeva bildirdi ki, geyim və digər dükanlarda gün ərzində bir neçə dəfə dezinfeksiya işləri aparılmalıdır. Bu işlə aidiyyəti qurumlar məşğul olmalıdırlar: "Nəzərə almaq lazımdır ki, geyim və digər satılan vasitələrlə insanlar əl ilə təmas edirlər. Bu zaman istənilən virus, o cümlədən, koronavirus da əl ilə toxunuş vasitəsilə başqa insanlara keçə bilər. Bu səbəbdən dükanlar qabaqlayıcı tədbirlər görməlidirlər".

*Günel CƏLİLOVA*

---

**Dünyanı vahiməyə salan yeni növ koronavirus (COVID-19) infeksiyası getdikcə daha çox ölkəni əhatə edir, insanlar arasında yoluxma və ölüm halları artır. Məhz bu səbəbdəndir ki, Ümumdünya Səhiyyə Təşkilatı koronavirusu bütün dünyada pandemiya elan edib.**

# Rusiyada tibb təhsili alanların diplomunun Bakıda tanınması problemi...

***Adil Qeybulla:** "Elə adamlar var ki, heç tanınmayan, etibarlılığı az olan bir məktəbə gediblər, belə diplomlar necə tanına bilər?"*



Pandemiya ölkə daxilində, qonşu dövlətlərin ərazilərində və bəzən dünyanın bir çox ölkəsində yoluxucu xəstəliyin yayılması ilə səciyyələnən qeyri-adi güclü epidemiyadır.

Azərbaycan koronavirusun yayılmasının qarşısını almaq üçün digər qabaqlayıcı addımlar da atır. Bütün ölkə boyu dezinfeksiya işləri aparılır. Yaşayış binaları, iaşə obyektləri, müəssisə və idarələr, həyət və yaşayış məhəllələri, həmçinin, digər yerlərdə tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər görülür. Bundan başqa, paytaxtda küçə və prospektlər, yol kənarlarındakı məhəccərlər və s. də dezinfeksiyaedici maddələrlə yuyulur.

Faktdır ki, koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin rolu danılmazdır. Onların sosial müdafiəsinin gücləndirilməsi haqqında ölkə başçısı sərəncam imzalayıb. Adıçəkilən virusla mübarizə tədbirində iştirak edən tibb işçilərinin əməkhaqqı 3-5 dəfəyədək artırılıb.

Postpandemiya dövründə xaricdə yaşayan azərbaycanlı həkimlərin Azərbaycana dəvət olunması gündəmdədir. Ancaq Rusiyada tibb təhsili alanlar ölkəmizdə işləyə bilmirlər.

Bu məsələ ilə bağlı bu günlərdə millət vəkili Azay Quliyev Milli Məclisdə Rusiyanın tibb universitetlərində baza və 2 illik ordinatura təhsili almış Azərbaycan vətəndaşlarına verilən "mütəxəssis sertifikatının" Səhiyyə Nazirliyi tərəfindən tanınmaması ilə bağlı məsələyə toxunub. Bununla bağlı Nazirlər Kabinetinin mövcud qərarında dəyişikliyə ehtiyac olduğunu bildirib.

Maraqlıdır, Rusiyada tibb üzrə təhsil alanların ölkədə diplomları niyə tanınmır? Həmin ölkədə tibb ixtisası üzrə təhsil alanlar ölkəmizdə həkim kimi niyə çalışa bilmirlər?

Professor, tibbi ekspert Adil Qeybulla qeyd etdi ki, Azərbaycan Təhsil Nazirliyinin reyestrində diplomları tanınan ali məktəblərin siyahısı var. Orada Rusiyanın, keçmiş sovetlər məkanının bəzi ali məktəblərinin adı var, bəziləri yoxdur. Sovet dövründə prestijli olan, məsələn, Moskva Dövlət Universiteti, Seçenev adına Tibb Universiteti və digər bu qəbildən olan nüfuzlu məktəblərin diplomları birmənalı tanınır. Tələbələrin həmin ali məktəblərə getdikləri, təhsil aldıqları yoxlanır. Məlumatlar doğrudursa, problem olmur: "Ancaq elə ali məktəblər var ki, onlar SSRİ dağılanda yaranıb. Onlara etibarlılıq məsələsi var. Ona görə də həmin ali məktəblərin diplomlarının tanınması sual altındadır. Akkreditasiya və Nostrafikasiya İdarəsi həmin sənədləri araşdırır. Ali məktəb həmin reyestrdə varsa, tələbənin orada dərsə getməsindən başlamaqla diplom almasına qədər bütün mərhələlər yoxlanır və diplomun tanınması təmin olunur. Mən bu sistemin əvvəlkindən daha şəffaf olduğunu hesab edirəm. Sənədlər ancaq elektron yolla qəbul olunur. Prosesə nazirlik səviyyəsində nəzarət edilir".

*"...artıq Rusiya ilə Azərbaycanın tibb təhsilinin strukturunda fərqlər yaranıb"*

Həmsöhbətimiz onu da əlavə etdi ki, elə adamlar var ki, heç tanınmayan, etibarlılığı az olan bir məktəbə gediblər: "Bəlkə tələbə heç o ölkəyə getməyib. Belə diplomlar necə tanına bilər?

Söhbət həkimlikdən, baza tibb təhsilindən gedirsə, biz artıq rezidenturaya keçmişik. Rezidentura Qərb təhsili sistemidir və bu, baza tibb təhsilindən sonra tibb təhsilinin ən yüksək mərhələsi sayılır. Bu müddətdə artıq Rusiya ilə Azərbaycanın tibb təhsilinin strukturunda fərqlər yaranıb. Ona görə də oradakı ordinatura burada iş üçün əsas sayılmır. İnternatura, subernatura diplomları artıq tanınmır. Çünki, dediyim kimi, biz Qərb təbabətinin sisteminə keçmişik".

*Günel CƏLİLOVA*

№ 69 (4200o) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

1 MAY 2020-ci il

www.baki-xeber.com



# Küçədən qayıtdıqdan sonra etməli olduğunuz 7 addım...

**Karantin şərtlərinin yumşaldılması, insanların daha uzun müddət küçədə olması və virusun gözlə görünməməsi əhalini bir qədər rahatladıb arxayın edəcək. Bununla da bir qədər zəifləyən virus daha asanlıqla daha çox insanı heç ağlına gəlmədiyi yerdə yaxalaya bilər.**

Ona görə də şərtlər nə olursa-olsun, ayıqlığımızı itirmədən, virusun evimizə gəlməsinin qarşısını almaq üçün tədbirləri uzun aylar icra etməliyik. "Medicina.az" həmin 7 qaydanı təqdim edir. 1.Ağzınızda maska varsa, onu artıq binaya, evə yaxınlaşanda, bir tərəfindən tutub çıxarıb, qatlamadan, əzmədən bir klyoka qoyub, zibil yeşiyinə atmaq. 2.Ayaqqabı, kurtkanı həyətdə və ya qapının çölündə çıxarmalı. Həyət evidirsə, elə ordaca ipdən asmalı. 3. Kurtka, çantanı bir sellofana qoyub, hamamda qoymalı. 4. Daha sonra hamama keçib, əllər, üz, boyun, burun, ağzı isti su və sabunla yuyulur. Əlləri 30 saniyə yaxşıca yuyandan sonra üzünüzə keçin. 5. Daha sonra bütün geyimlərinizi çıxarıb ya yuyulmağa qoymalı, ya da bir sellofana yığıb həyətə və ya balkona çıxarıb qoymalı. Onları çırpmaq, silkələmək olmaz. Səhəri gün yenə geyinə bilərsiniz. Virus parçada 7-8 saat qalır. 6. Telefonu elə hamam otağında dezinfeksiya etməli. 7. Sonra yenidən əllər sabunla yuyulur, boğaz, burun duzlu su ilə yaxalanır. Telefonunuza heç kim əl vurmasın və onu yemək masasına qoymayın. Yalnız təmiz ev geyimini geyindikdən sonra otağa keçib, ailə üzvlərinizə qarışın. Bunları edənə kimi ailədən heç kimlə yaxından danışıb ünsiyyətdə olmayın.

## "Azercell"dən minlərlə aztəminatlı ailəyə Ramazan ayında dəstək!

*Şirkət Ramazan ayı boyu bölgə sakinlərinə ərzaq yardımı paylayacaq*

**Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə aztəminatlı və digər həssas kateqoriyalardan olan ailələri sevindirməkdə davam edir.**

Şirkət tərəfindən korporativ sosial məsuliyyət strategiyası çərçivəsində həyata keçirilən xeyirxah təşəbbüslərin davamı olaraq müqəddəs Ramazan ayının hər həftəsi Azərbaycanın bölgələrində karantin dövründə sosial təcrid şəraitində yaşayan 1000 aztəminatlı ailəyə ərzaq məhsullarından ibarət sovqatlar paylanılacaq.

Ümumilikdə Ramazan ayı ərzində 4000-dən çox aztəminatlı ailəyə ərzaq dəstəyinin göstərilməsi nəzərdə tutulub. Bu həftə ərzaq yardımı Cəlilabad, Hacıqabul, Füzuli, Gədəbəydə yaşayan ehtiyacı olan ailələrə ediləcək.

Ərzaq payı alacaq ailələrin siyahısı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim ediləcək. Payları ölkə boyu müxtəlif ünvanlara Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərpoçt" MMC çatdıracaq.

"Azercell" şirkətinin təşkil etdiyi yardım aksiyalarının əsas məqsədi COVID-19 pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə həssas təbəqədən olan insanların sosial rifahını yaxşılaşdırmaq, dövlət tərəfindən məlum infeksiyanın yayılmasının qarşısının alınması istiqamətində keçirilən tədbirlərə dəstək vermək, həmçinin cəmiyyətdə vüsət alan sosial yardımlaşma təşəbbüslərinin genişlənməsinə nail olmaqdır.

Xatırladaq ki, Novruz bayramı münasibətilə və koronavirus (COVID-19) infeksiyası ilə mübarizə çərçivəsində "Azercell Telekom" MMC həssas qrup kateqoriyadan olan insanlara qayğı və dəstək məqsədilə "Regional İnkişaf" İctimai Birliyi (RİİB) ilə birlikdə Bakı şəhərində I qrup əlilliyə görə sosial müavinət alan ailə üzvü olan 6000-ə yaxın aztəminatlı ailəyə bayram sovqatı çatdırmışdı.



## Səudiyyə Ərəbistanında koronavirus xəstələrini robot müalicə edir

**Səudiyyə Ərəbistanın Ciddə şəhərindəki Kral Abdulla Tibb Mərkəzində koronavirusa yoluxmuş xəstələrin müalicəsində həkim-robotdan istifadə olunur.**

"Ted.az" bildirir ki, sözügedən robot analiz aparır və koronavirus xəstələri ilə təmasda olmuş insanlara diaqnoz qoyur. Krallığın Səhiyyə Nazirliyinin rəsmiləri hesab edirlər ki, həkim-robotun sayəsində xüsusi qoruyucu geyimlərdən istifadə edən tibb personalı, habelə müayinəyə gələnlər arasında təhlükəli virusun qarşısını almaq mümkün olacaq. Tibb Mərkəzinin rəhbəri Xalid Əl-Cumali bildirib ki, həkim-robot stetoskop, otoskop aparatları, göz kamerası və həssas linzaların köməyilə dərini analiz edən xüsusi kamera ilə təchiz olunub. Robot, həmçinin, həkim və tibb bacılarının istifadə etdikləri ləvazimatları daşıyır, pasientlərə məsləhətlər verir, radioqrafiya görüntüləri çıxarır və onları xəstələrin smartfon əlavəsinə göndərir. Əl-Cumali əlavə edib ki, bu yüksək texnologiya sayəsində xəstələrə göstərilən xidmətin keyfiyyəti və sürəti artıb. Belə ki, robot karantin palatalarına daxil olur və oranı tərk etdikdə dezinfeksiya işləri aparır.





**Qoç** - Yaxınlarınızla çox yaxşı yola gedəcək, rəğbət bəslədiyiniz adamların əhatəsində vaxtınızı xoş keçirəcəksiniz. Sevgi etirafı barədə qərar vermək olar - onu diqqətlə eşidəcək və bəyənəcəklər.



**Buğa** - İşlər pis getmir. Bu gün nə ciddi problemlər, nə də aşılmaz çətinliklər gözlənilir. Onların öhdəsindən kifayət qədər tez, səhvə yol vermədən və hədər yerə güc sərf etmədən gələcəksiniz.



**Əkizlər** - Gün əziyyətli keçəcək. Məşğul olduğunuz iş sizə maraqlı gəlməyəcək. Amma çətin ki, bu işdən xilas ola biləsiniz. Kübar tədbirlərə yollansanız, ehtiyatlı olun - gülünc vəziyyətə düşmək təhlükəsi var.



**Xərçəng** - Çox əlverişli və məhsuldar gündür. Əvvəlcədən qurduğunuz planlara uyğun hərəkət etməkdə sizə heç nə mane olmayacaq. Təşkilatçılıq qabiliyyətiniz açıq şəkildə ortaya çıxacaq, istənilən kollektivdə yaxşı rəhbər olmaq gücündəsiniz.



**Şir** - Yaradıcılıq qabiliyyətinizin ortaya çıxması və intuisiyanızın güclənməsi ilə yadda qalacaq. Bu saatlarda xoşagəlməz nəticələrdən ehtiyatlanmadan hisslərinizə güvənə bilərsiniz.



**Qız** - Bütün planları həyata keçirmək mümkün deyil. Bunu nə qədər tez anlasanız, gücünüzə bir o qədər qənaət etmiş olarsınız. Nəzərə almaq lazımdır ki, dostların, həmkarların və qohumların köməyinə bel bağlamağa dəyməz.



**Tərəzi** - Vəziyyəti yaxşılığa doğru dəyişmək olar. Bunun üçün birincisi baş verənləri sakitcə götür-qoy etmək, ikincisi tamamilə yeni fəaliyyət planı qurmaq lazımdır. Bu yerdə yaradıcılıq qabiliyyətiniz tam yerinə düşəcək.



**Əqrəb** - Təmaslarda səlis olun. Bu, tək qalmağın kim gəldi onun yanında dayanmaqdan daha yaxşı olduğu günlərdəndir. Yeri gəlmişkən, tənhalıqda yaxşı-yaxşı düşünmək olar və sizin üzərində fikirləşməyə nəyinizsə var.



**Oxatan** - Çətin vəziyyətə düşəcəksiniz: özünüzün işgüzar maraqlarınız və dotslarınıza kömək arasında seçim etməli olacaqsınız. Yerinə yetirməyin çətin olduğu və imtina edə bilmədiyiniz xahişlərin çox olduğu şəraitdə ruhi tarazlığı qorumaq müşkül məsələdir.



**Oğlaq** - Ünsiyyətə meylli deyilsiniz. Bu ətrafdakıların zövqüncə olmaya bilər. Sənədlərin rəsmiləşdirilməsi ilə məşğul olan Oğlaqlar bu gün formallıqları qaydaya sala biləcək, lazım olan möhür və imzaları alacaqlar.



**Dolça** - Günün əsas tendensiyası əlverişlidir. O, həyatın müxtəlif sahələrində dəyişikliklər, maraqlı ideyaların yaranması, müttəfiqlər və həmfikirlərin tapılması ilə yadda qalacaq. Siz nəsə tamamilə yeni bir şey istəyirsiniz.



**Balıqlar** - Bu gün bel bağlaya biləcəyiniz yeganə şy sevdiyiniz adamın anlayışıdır. Öz "yarı-sı"nı tapmamış Balıqlar bu gün ilk baxışdan, özü də uyğun olmayan adamlara vurulmağa meyllidirlər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Elan

Şəki rayonu, Baş Göynük kənd sakini Zülfiyev Sahib Yusif oğlunun adına verilmiş A -053153 saylı torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Aşağı Şabalıd kənd sakini Zəkəryəyev Hüseyn İslam oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 96 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, İnçə kənd sakini Talıbova Zəkiyə Əliheydar qızının və ailə üzvlərinin adına verilmiş JN: 58 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, İnçə kənd sakini Nəbiyeva Pəri Əhməd qızının və ailə üzvlərinin adına verilmiş JN: 23 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.